Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

12
FEVRAL
2020-ci il

№ 25 (4156)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# NÖVBƏDƏNKƏNAR SEÇKİYƏ GETMƏYƏN BƏZİ DEPUTATLARIN «SİRRİNİ» PREZİDENT AÇDI - YENİ DEPUTATLARA XƏBƏRDARLIQ EDİLDİ, CİDDİ MƏTLƏB VAR...

■ səh. 3 ■

Azərbaycan Prezidentindən bəzi beynəlxalq seçki müşahidəçilərinə sərt ittiham - rəyinizi seçkidən qabaq yazıbsınız

■ səh. 3 ■

Qərəzli olduqları əvvəlcədən bilinən bəzi beynəlxalq qurumlar da 9 fevralda müşahidəçiliyə dəvət olundu - yeni taktika özünü doğrultdumu...

■ səh. 5 ■

Ən fəal və ən passiv seçki dairələri arasında kəskin fərqin səbəbləri - eyni ölkə, eyni qanun, fərqlər isə...

■ səh. 7 ■

Vətəndaş Həmrəyliyi Partiyası MM-də YAP-dan sonra sayca "ana müxalifət" oldu - partiyanın öz reaksiyası...

■ səh. 6 ■

Öz qələbəsindən narazılıq edən deputat da gördük - Erkin Qədirli səsini artırdıqlarına görə MSK-ya müraciət edəcəyini dedi...

■ səh. 6 ■

Milli Məclisin yeni tərkibinin neçə faizini yenilənmiş saymaq olar...

■ səh. 5 ■

İlk Cümhuriyyət dövründə Ermənistan üçün qoparılmış torpaqlarımız...

■ səh. 11 ■

Paşinyan demokratiya deyə-deyə məhkəmə-hüquq sistemini tam nəzarətə götürür, Avropa isə susur...

■ səh. 10 ■

Bankların regionlarda kredit siyasətindəki xaosa son qoyulur...

■ səh. 12 ■



■ səh. 4 ■

## 20-yə yaxın Avropa, 16 rusiyalı deputatın 9 fevral seçkiləri barədə ayrılıqda iki kollektiv hesabat rəyi tam üst-üstə düşdü, Avroittifaq da dəstəklədi



Ermənistanın ən millətçi təşkilatlarından biri «Paşinyanın rayonları qaytarmaması tam yanlışdır» mövqeyinə gəldi...

■ səh. 9 ■

Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn koalisiya neft bazarına koronavirus təhdidini də aradan qaldıracaq

■ səh. 8 ■



Professor İdris Abbasov Ali Attestasiya Komissiyasından nələr açdı...

■ səh. 13-14 ■

■ səh. 2 ■

Rusiya Prezidenti Putin Azərbaycanda 9 fevral parlament seçkilərinə strateji qiymət verdi



■ səh. 2 ■

"Bəzi qüvvələr Azərbaycanın beynəlxalq təşkilatlarla münasibətlərində fasilə yaratmaqla məşğuldurlar"



■ səh. 2 ■

Ehsan Zahidov Suraxanıda 8 saylı məntəqədə polisi seçkiyə qanunsuz müdaxilə adı ilə qaralamaq istəyənlərin cavabını verdi



■ səh. 2 ■

Polis Yasamalda mənzil üstündə yaranmış vətəndaş mübahisəsini də həll etdi



■ səh. 7 ■

Milli Məclis partiyalarının sayı 3 vahid azaldı - 12-dən 9-a endi - nə gözlənir...





Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə məktub göndərib.

# Rusiya Prezidenti Putin Azərbaycanda 9 fevral parlament seçkilərinə strateji qiymət verdi

Məktubda deyilir: "Hörmətli İlham Heydər oğlu. Yeni Azərbaycan Partiyasının növbədənkənar parlament seçkilərində qələbə qazanması münasibətilə səmimi təbriklərimi qəbul edin.

Xalq səsverməsinin yekunları Sizin başçılıq etdiyiniz partiyanın Azərbaycan vətəndaşları arasında nüfuzunun yüksək olduğunu əyani təsdiq etdi.

Ümidvaram ki, dövlətlərimiz arasında strateji tərəfdaşlıq münasibətləri bundan sonra da möhkəmlənəcək.

Sizə və Sizin silahdaşlarınıza yeni-yeni uğurlar, Azərbaycan xalqına isə firavanlıq və rifah arzu edirəm".




## Ehsan Zahidov Suraxanıda 8 saylı məntəqədə polisi seçkiyə qanunsuz müdaxilə adı ilə qaralamaq istəyənlərin cavabını verdi

**Daxili İşlər Nazirliyi Bakıda seçki məntəqəsində polisin müşahidəçiyə zor tətbiq etməsi ilə bağlı yayılan videogörüntüyə münasibət bildirib.**

Naziliyin mətbuat xidmətinin rəisi Ehsan Zahidov "Trend"ə açıqlamasında bildirib ki, məsələdən məlumatlıdırlar və bu barədə araşdırma aparılıb: "Bəli, o görüntüləri biz də izləmişik, Suraxanı rayonunun Əmircan qəsəbəsindəki 8 saylı məntəqədə qeydə alınıb. Araşdırmalar zamanı məlum olub ki, həmin məntəqənin sədri qanunvericiliyin tələbinə uyğun olaraq ərazidə xidmətdə olan polis əməkdaşlarını məntəqəyə dəvət edib və orada olan müşahidəçinin seçki prosesinə yersiz və əsassız müdaxilə etməsini və seçicilərin normal səs vermələrinə maneələr yaratdığını bildirmişdir. Bundan sonra polis əməkdaşları məntəqəyə daxil olaraq həmin şəxsi nizam-intizama dəvət etmiş və ondan məntəqəni tərk etməsini tələb etmişlər. Lakin, o, polisin qanuni tələblərinə məhəl qoymayaraq onlara qarşı müqavimət göstərmişdir. Belə olan halda, polislər güc tətbiq etməklə onu məntəqədən kənarlaşdırıb və ciddi xəbərdarlıq ediblər. Bundan sonra məntəqə sədri həmin şəxsin müşahidəçi statusunda olmasını və polisin artıq xəbərdarlıq etdiyini nəzərə alaraq, onun yenidən məntəqəyə daxil olmasına icazə verib.

Yeri gəlmişkən, bir daha qeyd etmək istərdim ki, Milli Məclisə növbədənkənar seçkilər zamanı polis yalnız Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş halda - rəsmi dəvət əsasında seçki məntəqələrinə gəlib asayişi bərpa edib, qanunauyğun tədbirlər görüb".

Qeyd edək ki, sosial şəbəkələrdə Suraxanı rayonundakı seçki məntəqələrindən birində polis əməkdaşlarının məntəqənin daxilində bir nəfərə qarşı zor tətbiq etdiklərini əks etdirən videogörüntülər paylaşılıb.

# Aydın Quliyev: "Bəzi qüvvələr Azərbaycanın beynəlxalq təşkilatlarla münasibətlərində fasilə yaratmaqla məşğuldurlar"

**Azərbaycanda 9 fevral seçkiləri bütün əvvəlki parlament seçkilərindən bir sıra mühüm yeniliklərlə fərqlənir. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər"in baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**




Onun sözlərinə görə, seçki prosesinin bütün mərhələlərinin qanunvericilik çərçivəsində həyata keçirildiyi əksər beynəlxalq missiyalar tərəfindən qeydə alınıb: "Namizədlərin sayca çoxluğu cəmiyyətimizin siyasi fəallığının yüksəlməkdə olduğunun bariz ifadəsidir. Çoxsaylı iddiaçı hər bir seçki dairəsində prosesə cəlb olunan seçicilərin sayının dəfələrlə artmasını təmin edən təsirli faktora çevrildi.

Obyektiv beynəlxalq müşahidəçilərin ilkin rəy və hesabatlarında seçkilərin nəticələrinə əsaslı təsir göstərə bilən heç bir pozuntunun qeydə alınmadığı qırmızı xətlə qeyd edilir. Rəylərdə aydın görünən əlamətlərdən biri seçki prosesinin ümumən beynəlxalq standartlara zidd olmaması ilə bağlıdır. Bəzi qüvvələr seçki prosesində özünü göstərən mütərəqqi dinamikanı ört-basdır etməyə və əhəmiyyətini mənasızlıq həddinə endirməyə çalışırlar. Seçkinin beynəlxalq standartlara və qanunvericilik normalarına uyğun keçirildiyi halda, radikal qrupların mülahizələri reallığa uyğun gəlmir. Heç şübhə yoxdur ki, bu qüvvələr öz qərəzli mövqeləri ilə Azərbaycanın beynəlxalq təşkilatlarla münasibətlərində fasilə yaratmaqla məşğuldurlar. Azərbaycanın bütün məsələlər üzrə beynəlxalq əməkdaşlıq siyasəti strateji xarakter daşıdığı üçün, həmin qüvvələr bu siyasəti poza bilməz".

Ekspert deyib ki, bir-birilə ziddiyyət təşkil edən müxtəlif rəylər seçki məsələsində Azərbaycanın dostları və düşmənləri adı altında bölgü aparmağa tam əsas verir. Ortada seçkilər prosesinə adekvat münasibət yox, başqa maraqları yeritmək niyyətləri hiss olunur. Bütün seçkilərin nəticələrinə şübhə oyatmaq, Azərbaycandan təzyiqlə nəsə qoparmaq planlarının tərkib hissələri kimi təzahür edir".

A.Quliyev qeyd edib ki, ayrı-ayrı subyektiv və qərəzli seçki rəyləri Azərbaycanın beynəlxalq inteqrasiya siyasətinə ziyan vurmaq, dayandırmaq və ya yönləndirmək gücündə deyil: "9 fevral seçki prosesinin bütün təzahürləri Azərbaycanın beynəlxalq əlaqələr sistemində mövqe və imicinə müsbət dinamika vermək gücündədir".



# Polis Yasamalda mənzil üstündə yaranmış vətəndaş mübahisəsini də həll etdi

## *Elşad Hacıyev izahat verdi*

**Paytaxtın Nəsimi rayonunda yerləşən ticarət mərkəzlərindən birinin qarşısında hüquqlarının pozulması ilə bağlı şikayət edən Saraxanım Ağayeva polis əməkdaşları tərəfindən Yasamal RPİ-yə dəvət olunaraq rəhbərlik tərəfindən qəbul edilərək dinlənib.**

Bu barədə "Trend"ə Bakı şəhər BPİ Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev deyib.

Onun sözlərinə əsasən, qəbul zamanı vətəndaş bildirib ki, 2010-ci ildə oğlu Ceyhun Aslanov tanışı Bahadur Qasımova məxsus, Yasamal rayonu, H.Zərdabi prospektində yerləşən mənzili ömürlük renta müqaviləsi bağlayaraq, ömrünün sonuna kimi saxlaması, eləcə də mənzilə dair bütün xərcləri ödəməsi öhdəliyini üzərinə götürərək 40000 manat xərcləyib. 2018-ci ildə B.Qasımov vəfat etdikdən sonra qardaşı Platon Qasımovun müqavilənin ləğv olunması ilə bağlı Yasamal Rayon Məhkəməsinə müraciət etməsi onların arasında mülki mübahisənin yaranmasına səbəb olub.

Vətəndaşın şikayəti üzrə xüsusatlar polis idarəsində tam və hərtərəfli araşdırılmaqla, qanunvericiliyin tələbləri onun diqqətinə çatdırılıb, mübahisə doğuran halların araşdırılması üçün məhkəməyə müraciət etmək hüququnun olması izah edilib.

# Azərbaycan Prezidentindən bəzi beynəlxalq seçki müşahidəçilərinə sərt ittiham - rəyinizi seçkidən qabaq yazıbsınız

**"Onların bəzi hallarda rəyi seçkilərdən öncə yazılır, özü də onlar tərəfindən yazılmır, başqa yerlərdə yazılır, onlara ötürülür". Bunu Prezident İlham Əliyev Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.**

*"Ölkəmizi istəməyən dairələrin siyasi sifarişinə uyğun olaraq, qabaqcadan belə qərəzli rəylər hazırlayırlar"*

Ölkə başçısının sözlərinə görə, 1300 dən çox namizədin olması seçkilərə inamın təzahürüdür: "Çünki əgər inam olmasaydı, bu adamlar bəlkə də seçkilərə qatılmazdılar. Ona görə bu seçkilərin xüsusi rolu var. O ki qaldı, bəzi beynəlxalq müşahidə missiyalarının rəyinə, biz onların mənfi rəyinə çoxdan öyrəşmişik. Onların bəzi hallarda rəyi seçkilərdən öncə yazılır, özü də onlar tərəfindən yazılmır, başqa yerlərdə yazılır, onlara ötürülür. Biz bunu dəfələrlə müşahidə etmişik. Siz də Avropa Şurasının bizə qarşı olan mənfi münasibətini qeyd etdiniz. Bunun da son təzahürü qəbul edilmiş, yalan üzərində qurulmuş son qətnamədir. Yəni bu qətnamənin qəbul edilməsi, əslində, parlament seçkilərinə kobudcasına müdaxilədir. Birincisi, bu qətnamə saxtadır və biz bunu qəbul etmirik. Orada bizə qarşı irəli sürülən ittihamları rədd edirik və bizə qarşı ünvanlanmış dırnaqarası tələblərin heç birini icra etməyəcəyik. Bu, bir. İkincisi, bu qətnamənin qəbul edilmə vaxtı. Parlament seçkilərinə az vaxt qalmış bu qətnamənin qəbul edilməsi Azərbaycana qarşı olan mənfi və ədalətsiz yanaşmanın təzahürüdür".

Azərbaycana qarşı qərəzli mövqedən çıxış edən bəzi beynəlxalq təşkilatlar zaman-zaman ölkədə keçirilən seçkilərə bu cür münasibət bildiriblər. Seçki olmamış rəylər hazırlayırlar və qabaqcadan onlara verilmiş siyasi sifarişə uyğun olaraq mövqe sərgiləyirlər. Təəssüflər olsun ki, bu dəfə də belə qərəzli yanaşmanın şahidi olduq.

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, müəyyən beynəlxalq təşkilatlar Azərbaycanda keçirilən seçkiləri qaralamaq üçün dəfələrlə bu taktikadan istifadə ediblər: "Ona görə də deyilən fikirlər tam əsaslıdır və reallığı əks etdirir. Bir neçə il əvvəl seçkilərin nəticələri ilə bağlı bir beynəlxalq təşkilatın hesabatını oxudular. Bunun başdan-ayağa qərəzli olduğu məlum olanda biz həmin tədbirdə hesabata etiraz etdik. Həmin beynəlxalq təkilatın ədalətsiz olduğunu onların

***Vüqar Rəhimzadə:** "Müəyyən beynəlxalq təşkilatlar Azərbaycanda keçirilən seçkiləri qaralamaq üçün dəfələrlə bu taktikadan istifadə ediblər"*



diqqətinə çatdırdıq. O hesabat Azərbaycana aid olmayan tamamilə ədalətsiz bir yanaşma idi. Müşahidələr göstərir ki, bəzi beynəlxalq təşkilatlar özlərinin bu pis "ənənəsinə" son qoymurlar. Yenə də seçki olmamışdan əvvəl rəy hazırlayaraq seçkidən dərhal sonra onu bəyan edirlər. Aydın məsələdir ki, bütün bunlar təsadüfi deyil. Məsələ ondadır ki, bəzi beynəlxalq təşkilatlar Azərbaycanı istəməyən dairələrin siyasi sifarişinə uyğun olaraq qabaqcadan belə qərəzli rəylər hazırlayırlar.

Sözügedən təşkilatlar da həmin dairələrin əlində alət rolunda çıxış edirlər. Nəticədə əvvəlcədən hazırlanmış bəyanatlarla gəlirlər. Parlament seçkilərinin beynəlxalq standartlara uyğun olmasına baxmayaraq, yenə öz qərəzli rəylərini bəyan edirlər. Hesab edirəm ki, bu qəbuledilməz haldır. Belə hallar beynəlxalq münasibətlər sisteminə xələl gətirir. Ən başlıcası isə həmin beynəlxalq təşkilatların hörmətən salır. Cənab Prezident məlum açıqlaması ilə bəzi beynəlxalq təşkilatların xislətini ortaya qoydu. Məlum oldu ki, həmin təşkilatlar birmənalı olaraq qərəzlidirlər və müəyyən dairələrin siyasi sifarişlərini yerinə yetirirlər".

***Vidadi ORDAHALLI***

# Növbədənkənar seçkiyə getməyən bəzi deputatların "sirrini" Prezident açdı - yeni deputatlara xəbərdarlıq edildi, ciddi mətləb var...

**Prezident İlham Əliyev MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri, Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib ki, keçirilən növbədənkənar parlament seçkiləri 2018-ci ildə prezident seçkilərindən sonra elan edilən islahatların davamıdır və onlar ardıcıl olaraq həyata keçirilir:**



"Hər şey Azərbaycanın dayanıqlı inkişafının təmin olunmasına və demokratik proseslərin genişlənməsinə yönəlmiş ümumi inkişaf strategiyası çərçivəsində gedir. Buna görə də həyata keçirilən struktur islahatları, o cümlədən, kadr islahatları da bir məqsədə xidmət edir: biz yerimizdə saymayaq. Çünki müvəffəqiyyətlərdən arxayınlaşmaq olmaz".

Ölkə başçısı baş tutan seçkilərə də ətraflı qiymət verib: "Ümumilikdə, 1300-dən çox namizədin olması seçkilərə etimadın göstəricisidir. Bu isə görünməmiş saydır. Əgər onlar seçkilərə inanmasaydılar, öz namizədliklərini verməzdilər və bu qədər vaxt sərf etməzdilər. Mənə həm dünən, həm də bu gün məruzə etdilər ki, proses, ümumilikdə, sakit keçib və heç bir gözlənilməz hal olmayıb. Ona görə də kimsə qalib gəlir, kimsə məğlub olur. Hər kəs reallıqla barışmalıdır. Reallıqlar belədir ki, şərait yaradılıb, maksimum şəffaflıq təmin edilib. Həm də gözlənilməz çətin hava şəraitinə baxmayaraq, Azərbaycan vətəndaşları səs verdilər. Düşünürəm ki, seçki fəallığı da yaxşı olub. Hərçənd başlıca olan bu deyil, əsas odur ki, xalqın seçəcəyi insanlar məsuliyyət hiss etsinlər. Bilsinlər ki, əgər yenə də seçilmək istəyirlərsə, onda dairələrdə iş aparmalıdırlar. Bax, bu, keçmiş parlamentdə çatışmırdı. Buna görə də parlamentin bir çox keçmiş üzvü dairələrdə işləmədikləri üçün seçkilərdə iştirak etmədi. Bu, yeni parlamentin qarşısında duran əsas vəzifələrdən biri olacaq. Çünki bütün ölkənin dayanıqlı inkişafının təmin edilməsi üçün deputat korpusu regionların problemlərini dərk etməlidir, onları üzə çıxarmalıdır və hökumətə, ictimaiyyətə çatdırmaqla onların həllinə kömək etməlidir".

***Rauf Zeyni:** "Bilməlidirlər ki, dairə ilə işləməsələr, bir də seçiciləri 5 il sonra yada salsalar, vəziyyətləri çox acınacaqlı olacaq"*

Göründüyü kimi, ölkə başçısı yeni formalaşacaq parlamentin üzvlərinə əvvəlki sələflərinin buraxdıqları səhvlərə yol verməmələri ilə bağlı çağırış edib. Əsasən də onlara dairələrdəki seçiciləri ilə sıx təmasda olmağı tövsiyə edib. Ölkə başçısının bu fikirlərindən yeni deputatlar hansı nəticəni çıxarmalıdırlar?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun rəhbəri Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısının məsləhətindən ciddi nəticə çıxarılmalıdır: "Əslində, buna əməl etmək deputatların borcudur. Ancaq əməl etmədikləri üçün ortaya biabırçı mənzərə çıxmışdı. Biz təbliğat-təşviqat mərhələsində bəzi millət vəkillərinə seçicilərin münasibətini gördük. Orada əsasən "niyə 5 ildə bir dəfə də olsun qapımızı açmayıbsan" iradları söylənirdi. Götürək ki, bunların biri təxribat, digəri öyrədilmiş adamlar idi. Bəs başqaları nə idi? Deməli, iradlarda həqiqət payı da az olmayıb. Prezident də deputatlara çağırış edir ki, seçicilərlə işləsinlər.

Bundan yeni formalaşan parlament ciddi nəticələr çıxarmalıdır. Bilməlidirlər ki, dairə ilə işləməsələr, bir də seçiciləri 5 il sonra yada salsalar, vəziyyətləri çox acınacaqlı olacaq. Şükürlər olsun ki, seçkilər çox normal keçdi və baş tutmuş sayılır. Ümidvaram ki, yeni formalaşan parlament öz fəallığı və məsuliyyəti ilə əvvəlkindən fərqlənəcək. Millət vəkilləri elə fəaliyyət göstərməlidirlər ki, ümumən qanunvericilik orqanının nüfuzuna xələl gəlməsin".

***Məhəmmədəli QƏRİBLİ***

# 20-yə yaxın Avropa, 16 rusiyalı deputatın 9 fevral seçkiləri barədə ayrılıqda iki kollektiv hesabat rəyi tam üst-üstə düşdü, Avroittifaq da dəstəklədi

**Avropanın bir sıra ölkələrinin, o cümlədən, İtaliya, Almaniya, Fransa, Polşa, Bolqarıstan, Çexiya, Yunanıstan parlamentlərinin deputatları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və ekspertləri fevralın 9-da Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə bağlı hesabat yayıblar.**

"Trend"in məlumatına görə, hesabatda italiyalı deputatlar Osvaldo Napolinin, Ettore Liçerinin və ekspert Angela Krovettinin, almaniyalı deputatlar Ulriç Singerin, Uli Henkelin, fransalı deputat Jan-Luc Reitzerin, ekspert Qregori Jullienin, bolqarıstanlı deputatlar Rumen Geçevin, Manol Genovun, Anton Kutevin, polşalı deputat Katarzina Ueberhanın və ekspert Janusz Niedzvieçkinin, çexiyalı deputatlar Vera Prohazkovanın, Yaroslav Doubravanın, ekspert Rania Younisovanın, yunanıstanlı deputatlar Lazaros Tsavdaridisin, Katerina Monogiounun və Stella Biziounun rəyləri yer alıb. Adları çəkilən parlamentarilər və ekspertlər fevralın 7-dən 10-dək Azərbaycanda olub, seçkiqabağı vəziyyətlə tanış olub, səsvermənin gedişini izləyiblər.

Yayılan hesabatda qeyd edilir ki, müşahidə missiyasının fəaliyyəti müvafiq beynəlxalq qaydalara və Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsaslanıb. Seçkilərin monitorinqi zamanı müşahidə missiyası Azərbaycanda yerli və beynəlxalq monitorinq qrupları ilə mütəmadi əlaqə saxlayıb, şəffaflıq və aşkarlıq prinsiplərinə riayət edib.

Avropalı deputatlar və ekspertlər seçkiqabağı vəziyyətlə əlaqədar bildiriblər ki, seçicilər, müşahidəçilər, polislər üçün məlumat kitabçaları və digər materiallar hazırlanıb, seçkiqabağı müddətdə kütləvi informasiya vasitələrində təbliğat-təşviqat layihələri həyata keçirilib. Həmçinin, namizədlərə televiziya və radio kanallarında, qəzetlərdə ödənişli əsaslarla təşviqat aparmaq üçün imkan yaradılıb. Seçkilərlə bağlı kütləvi tədbirlərin və seçkiqabağı təşviqat kampaniyasının həyata keçirilməsi məqsədilə açıq və qapalı yerlər ayrılıb. Seçicilər, müşahidəçilər və seçkilərlə maraqlanan digər şəxslər seçki ilə bağlı rəsmi məlumatları MSK-nın internet səhifələrindən əldə edə biliblər.

Hesabatda 1000 seçki məntəqəsində vebkameraların quraşdırıldığı, hər bir seçicinin gizli səsvermə üçün xüsusi texniki vasitələrlə təchiz edilmiş kabinədə şəxsən səs verdiyi bildirilir. Vurğulanır ki, məntəqə seçki komissiyalarının üzvləri və müşahidəçilər heç bir maneə və təzyiq olmadan fəaliyyət göstəriblər. Məntəqələr seçicilərin rahat səs vermələri üçün bütün lazımi avadanlıq və materiallarla təchiz edilmişdi. Fərqli seçki məntəqələrində müşahidələr zamanı seçiciyə öz iradəsini ifadə etmək üçün təsir göstərmək cəhdləri və ya gizli səsvermənin pozulması kimi hallar müşahidə edilməyib. Səsvermənin nəticələrini saxtalaşdırmaq və təhrif etməklə bağlı heç bir problem və ya cəhd qeydə alınmayıb. Seçki zamanı maraqlı bir yeniliyi də qeyd etmək olar ki, bu da seçicinin barmaqlarının ultrabənövşəyi lampalarla yoxlanılması, xüsusi mürəkkəblə işarələnməsi idi. Səhhəti ilə bağlı məntəqəyə gələ bilməyənlər üçün də lazımi imkanlar yaradılmışdı. Bu məqsədlə seçki məntəqələri səyyar qutularla təmin edilmişdi.




Hesabatda, həmçinin, müşahidə missiyasının bəzi çatışmazlıqlar da qeydə aldığı, lakin bu çatışmazlıqların səsvermə prosesinin normal şəraitdə keçməsinə və seçicilərin öz iradələrini sərbəst ifadə etmələrinə təsir göstərmədiyi bildirilir. Qeyd edilir ki, missiyanın üzvləri seçki məntəqələrinin bağlanması, səslərin sayılması və nəticələrlə bağlı protokolların doldurulması prosesini də izləyiblər və bu proses seçki qanunvericiliyinin tələblərinə uyğun aparılıb.

Beləliklə, avropalı deputatların və ekspertlərin fevralın 9-da Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə bağlı yekun rəyi odur ki, bütövlükdə, seçkilər Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və dünyada qəbul edilmiş demokratik seçki normalarına uyğun keçirilib. Seçkilər şəffaf keçib və seçicilərin öz iradələrini ifadə etməsi təmin olunub.

Hesabatda müşahidə missiyasının üzvlərinin bir sıra tövsiyə xarakterli fikirləri də yer alıb.

Dünən Beynəlxalq münasibətlər İnstitutunun müşahidə missiyası kimi Azərbaycana gəlmiş 16 rusiyalı deputat da hesabat yayıb.

Qeyd ediblər ki, Azərbaycan Respublikası Milli Məclisinə seçkilər dürüst, ədalətli, azad və şəffaf olub və mövcud qanunvericiliyə uyğun keçirilib. Bu rəy "Sotrudniçestvo" Beynəlxalq Münasibətlər İnstitutunun müşahidə missiyasının fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasında parlament seçkilərinə dair hesabatında yer alıb. Missiyanın tərkibinə Dövlət Dumasının deputatları Aleksey Juravlyov, Sergey Marinin, Yelena Strokova, Boris Çernışov, Maksim İvanov, ekspertlər Lyudmila Kozlova, Oleq Kuznetsov, Yevgeni Kondraxin, Yelena Brızqalina, Valeri Fyodorov, Sergey Voronin, Yelena Marinina, Sergey Markov, Darya Qrevtsova, Ramin Qasımov, Aleksey Bıçkov daxil olublar.

Hesabatda deyilir ki, müşahidəçilər qrupu öz missiyasına fevralın 7-də başlayıb. Onun fəaliyyəti müvafiq beynəlxalq qaydalara və Azərbaycan Respublikasının qanunvericiliyinə əsaslanır. Müşahidə missiyası zamanı qrup Mərkəzi Seçki Komissiyası, yerli və beynəlxalq müşahidəçilərlə sıx əlaqə saxlayıb, açıqlıq və şəffaflıq prinsiplərini rəhbər tutub. Müşahidəçilər qrupunun ofisi Bakıda olub.

Müşahidəçilər qrupunun hesabatında qeyd olunub ki, seçicilər, müşahidəçilər və polislər üçün seçkilərə dair bir sıra informasiya xarakterli kitab və materiallar çap edilib, həmçinin, seçkiqabağı kampaniya zamanı reklam və izahat layihələri həyata keçirilib, KİV-də elanlar yerləşdirilib.

Seçicilər, müşahidəçilər və digər maraqlı şəxslər seçkilər haqqında (www.msk.gov.az, www.cec.gov.az, www.infocenter.gov.az) internet saytlarında zəruri informasiyaları almaq imkanlarına malik olublar.

Qeyd olunub ki, Seçki Məcəlləsinə uyğun olaraq, seçicilərin tam siyahısı seçki məntəqələrində və Mərkəzi Seçki Komissiyasının dairələrində saxlanıb.

Siyahılar iki nüsxədə çap olunub və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 46-cı maddəsinə uyğun olub.

Seçicilərin siyahısı tanış olmaq üçün həm də MSK-nın saytında və seçki dairələrindəki stendlərdə yerləşdirilib. Hər bir seçici öz adının siyahıda olmasını şəxsi məlumatlarını (ad, soyad, atasının adı, doğum tarixi, seçki məntəqəsinin sayı) göstərməklə bilavasitə yerində və ya axtarış sistemi vasitəsilə yoxlaya bilib. Seçki məntəqələri üzrə bütün zəruri məlumatlar, xəritələr, nəqliyyat sxemi seçicilərin rahatlığını təmin etmək məqsədilə saytlarda yerləşdirilib. Hər hansı pozuntunun aşkar edilməsi zamanı seçicilər "115 qaynar xətt"inə zəng edə və ya onlayn müraciəti doldurmaqla MSK-ya müraciət ünvanlaya biliblər. Daxil olan bütün müraciətlərə baxılıb və müvafiq tədbirlər görülüb. Seçicilər öz adlarının seçici siyahısında olmaması ilə əlaqədar həm də dairə seçki komissiyalarına müraciət edə biliblər.

"Sotrudniçestvo" Beynəlxalq Münasibətlər İnstitutunun müşahidə missiyasının olduğu bütün seçki məntəqələri səsvermə üçün qutularla, kabinələrlə, masalarla, dəftərxana ləvazimatı və bütün zəruri avadanlıqlarla təmin edilib. Səsvermə üçün qutular onların doluluğunu görmək üçün yetərincə şəffaf olub. Daxil olmuş informasiyalara uyğun olaraq, minə yaxın seçki məntəqəsində onlayn vebkameralar quraşdırılıb. Müşahidəçilər qrupu namizədlər, bülletenlərin doldurulması və Seçki Məcəlləsinin pozulmasına görə cinayət və inzibati məsuliyyət barədə məlumatlar olan xüsusi stendlərin mövcudluğunu qeyd ediblər.

Hər bir seçici şəxsən və təklikdə səs verib. Bülletenlər heç kimin daxil olmağa ixtiyarı olmayan kabinələrdə doldurulub və gizli səsvermə üçün bütün xüsusi texniki vasitələrə malik olub. Məntəqə seçki komissiyalarının üzvləri və müşahidəçilər heç bir maneə və təzyiq olmadan fəaliyyət göstəriblər. Səsvermənin keçirildiyi müxtəlif məntəqələrdə müşahidələr zamanı seçicilərin iradəsinə təsir göstərilməsi və ya səsvermənin gizliliyinin pozulması halları aşkar edilməyib.

Bundan başqa, məntəqə seçki komissiyaları tərəfindən səhhəti ilə bağlı seçki məntəqəsinə gələ bilməyənlər üçün imkanlar yaradılıb. Bu məqsədlə seçki məntəqələrində daşınan qutular olub.

Bəzi tək-tük nöqsanlar və çatışmazlıqlar səsvermənin gedişatına və seçicilərin öz seçimini azad yerinə yetirməsinə heç bir təsir göstərməyib.

Müşahidəçilər qrupunun üzvləri seçki məntəqələrinin bağlanması, səslərin sayılması və səsvermənin yekunlarına dair protokolların tərtibi proseslərini izləyiblər və qeyd ediblər ki, bütün proses ölkənin seçki qanunvericiliyinin tələblərinə müvafiq şəkildə aparılıb.

"Sotrudniçestvo" Beynəlxalq Münasibətlər İnstitutunun Azərbaycan Respublikasında 2020-ci il fevralın 9-da keçirilmiş parlament seçkilərinə verdiyi qiymət onun üzvlərinin öz müşahidələri, qısamüddətli və uzunmüddətli monitorinq zamanı toplanmış qanunvericiliyin, material və informasiyaların öyrənilməsi və təhlilinə əsaslanıb.

"Azərbaycan Respublikasında 2020-ci il fevralın 9-da keçirilmiş parlament seçkilərinin monitorinqinin gedişində səsvermənin nəticələrinə təsir edə biləcək seçki qanunvericiliyinin pozulması halları qeydə alınmayıb. Ümumilikdə, seçkilər Azərbaycan Respublikasının seçki qanunvericiliyinə və hamı tərəfindən tanınan demokratik normalara müvafiq şəkildə keçirilib.

Bütün bunları nəzərə alaraq, seçkilərin dürüst, ədalətli, azad və şəffaf olduğunu və qüvvədə olan qanunvericiliyə uyğun şəkildə keçdiyini söyləmək olar", - deyə hesabatda qeyd olunur. Avropa İttifaqı Xarici Fəaliyyət Xidməti də Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri ilə bağlı pozitiv bəyanat yayıb.

Sənəddə qurum ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) ilkin qiymətləndirməsini bölüşdüyünü bəyan edir.

Bildirilir ki, Avropa İttifaqı bütün vətəndaşların mənafeyi naminə dialoqun davam etdirilməsini və Azərbaycan təsisatları ilə, o cümlədən, yeni seçilmiş parlamentlə sıx işləməyi səbirsizliklə gözləyir.

***Hazırladı: Namiq QULİYEV***

# Qərəzli olduqları əvvəlcədən bilinən bəzi beynəlxalq qurumlar da 9 fevralda müşahidəçiliyə dəvət olundu - yeni taktika özünü doğrultdumu...

**"Biz çoxlu sayda müşahidəçi dəvət etdik, gələnlərin hamısına minnətdarıq". Bu fikirləri Prezident İlham Əliyev MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri, Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.**



## *Yadigar Məmmədli: "Bu onu göstərir ki, Azərbaycan tərəfi demokratik prinsiplərdən çıxış edərək tənqidlərə dözümlü yanaşır"*

Ölkə başçısının sözlərinə görə, qərəzli olduqları əvvəldən bilinən bəzi beynəlxalq qurumlar da seçkiləri müşahidə etməklə bağlı dəvət edilib: "Azərbaycanda keçirilən seçki kampaniyalarının təcrübəsinə əsasən deyə bilərəm ki, biz həmişə qərəzli münasibət görmüşük. Bununla belə, hesab edirik ki, bizim gizlədəcəyimiz heç nə yoxdur. Biz çoxlu sayda müşahidəçi dəvət etdik, gələnlərin hamısına minnətdarıq. Ona görə də son nəticədə nə yazılacağından və onları hansısa fikirləri səsləndirməyə məcbur edəcəklərindən asılı olmayaraq, hər halda, onların hər birində həm ölkəmiz, həm insanlarımız, həm də seçki prosesi haqqında rəy formalaşacaq. Bu baxımdan Dövlət Dumasının nümayəndə heyətinin bu tərkibdə prosesdə iştirak etməsi bizim üçün çox qiymətlidir. Əlbəttə, MDB və digər beynəlxalq təşkilatların nümayəndə heyətləri də var. Ona görə də düşünürəm ki, başlıcası, Azərbaycan xalqının nəticələrdən razı qalmasıdır. Çünki bizim üçün əsas məsələ bu idi ki, insanlar kimə səs verəcəklərini və kimə etimad göstərəcəklərini seçə bilsinlər. Bu etimadın səviyyəsi çox yüksəkdir".

Bütövlükdə, qərəzli olduqları əvvəldən bilinən bəzi beynəlxalq qurumların da dəvət olunması, seçkiləri müşahidə etmələri taktikası özünü necə doğrultdu?

Məsələyə münasibət bildirən Demokratik Jurnalistlər Liqasının rəhbəri Yadigar Məmmədlinin sözlərinə görə, sözügedən taktika özünü doğrultdu: "Azərbaycanda keçirilən bütün seçkilərdə beynəlxalq müşahidəçilərin iştirakına şərait yaradılır. İstər Avropa təsisatlarından olan müşahidəçilərə, istərsə də yaxın qonşulardan olan müşahidəçilərə bu imkan yaradılıb. Onlar seçkiləri müşahidə etməklə bağlı ölkəyə dəvət ediliblər. Cənab Prezident sözügedən məqamlara toxunmaqla bir sıra məsələlərə aydınlıq gətirdi. Məlum oldu ki, bəzi Avropa qurumları hər dəfə müşahidə apardıqdan sonra qərəzli olaraq seçkilərin demokratik şərtlərə uyğun olmaması barəsində fikir bildirirlər.

*"Başqa ölkə olsaydı, həmin qurumları yaxına belə buraxmazdı"*

Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan demokratik prinsiplərdən çıxış edərək bütün tərəflərə müşahidə aparmaqla bağlı şərait yaratdı. Bu onu göstərir ki, Azərbaycan tərəfi demokratik prinsiplərdən çıxış edərək tənqidlərə dözümlü yanaşır. Baxmayaraq ki, bir sıra hallarda bu cür tənqidlər qərəzli xarakterli olur. Başqa ölkə olsaydı, həmin qurumları yaxına belə buraxmazdı.

Neçə illərdir həmin təşkilatlar Azərbaycandakı seçkiləri müşahidə edir və hər dəfə nəticələri qərəzli formada dəyərləndirirlər. Bu da haqlı olaraq bizdə o fikirləri yaradır ki, bu təşkilatlar qərəzlidirlər.

**Ancaq dövlətimiz humanistlik göstərərək bizi kəskin tənqid edən qurumlara da seçkiləri müşahidə etməklə bağlı şərait yaradır. Bu həm də ondan irəli gəlir ki, Azərbaycanda keçirilən seçkilər beynəlxalq standartlara uyğundur. Müəyyən dairələr məqsədyönlü şəkildə bunu inkar etsələr də, öz qərəzli niyyətlərini reallaşdıra bilməyəcəklər".**

***Vidadi ORDAHALLI***

# Milli Məclisin yeni tərkibinin neçə faizini yenilənmiş saymaq olar...

**Milli Məclisə keçirilən seçkilərin nəticələri bəlli olub. Mərkəzi Seçki Komissiyasının açıqladığı nəticələrə görə, 125 dairənin hər biri üzrə lider namizədlər müəyyən olunub.**




## *Azər Həsrət: "Parlamentə düşənlərin 40 nəfərdən çoxu yeni simadır"*

Parlamentə keçirilən seçkilərdə ilkin nəticələrə əsasən, Yeni Azərbaycan Partiyasının (YAP) 74, Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) 3, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) 1, Azərbaycan Demokratik İslahatlar Partiyasının (ADİP) 1, Ana Vətən Partiyasının (AVP) 1, Böyük Quruluş Partiyasının (BQP) 1, Vəhdət Partiyasının (VP) 1, Vətəndaş Birliyi Partiyasının (VBP) 1, Azərbaycan Demokratik Maarifçilik Partiyasının (ADMP) 1 nümayəndəsi lider namizəd elan edilib.

Lider namizədlərin 21-i qadın, 104-ü isə kişidir. Milli Məclisə keçirilən növbədənkənar seçkilərdə 41 nəfər bitərəf namizəd qalib gəlib. Qaliblər arasında 44 yeni sima var.

Parlament seçkilərində Vasif Talıbov, Eldar İbrahimov, Mədər Musayev, Hadi Rəcəbli, Mixail Zabelin, Fəttah Heydərov, İmamverdi İsmayılov və Fəzail Ağamalı ardıcıl 6-cı dəfə deputat seçiliblər. Milli Məclisin yeni tərkibində ən gənc deputat xanımdır. Belə ki, 12 saylı Binəqədi-Yasamal-Qaradağ Seçki Dairəsindən lider namizəd Səbinə Xasayevanın 26 yaşı var. Bundan başqa, 1 saylı Şərur-Sədərək Seçki Dairəsinin lider namizədi Vasif Talıbov 94,6 % səslə 125 dairədən seçilən namizədlər arasında ən yüksək səs faizi ilə qalib gələn yeganə şəxsdir. 79 saylı İmişli Seçki Dairəsinin lider namizədi Razi Nurullayev isə 20,9 % səslə 125 dairədən seçilən namizədlər arasında ən aşağı səs faizi ilə qalib gələn şəxsdir.

Bütün bunlarla yanaşı, parlamentin yeni tərkibinin neçə faizini yenilənmiş saymaq olar?

Məsələyə münasibət bildirən media eksperti Azər Həsrətin sözlərinə görə, parlamentin üçdə bir hissəsi yenilənib: "Hələlik parlamentin yeni tərkibini tam analiz etmək mümkün olmayıb. Çünki buna müəyyən vaxt lazımdır ki, yeni gələnlərin hamısı təhlil olunsun. İlkin məlumata görə, parlamentə düşənlərin 40 nəfərdən çoxu yeni simadır. Digərləri isə əvvəlki parlamentdə təmsil olunan şəxslərdir. Yeni seçilənlər arasında tanıdığım və tanımadığım şəxslər var. Yeni simalar arasında Arzu Nağıyev, Vüqar Bayramov var. Sözügedən şəxsləri illərdir tanıyıram. Bununla belə, həmin şəxslər ictimaiyyət tərəfindən də tanınır. Hesab edirəm ki, bu cür adamların parlamentdə təmsil olunması yaxşı haldır. Çünki həmin şəxslər işgüzar olmaqla yanaşı, cəmiyyətdə yetərincə tanınıblar. Bununla belə, danışmağı bacaran, ictimai rəyə təsir etməyi bacaran şəxslərdirlər. Rauf Arifoğlunu da bura əlavə etmək olar.

*"Seçilən yeni deputatlar arasında keçmişdə iş adamı olmuş şəxslər də var"*

Ümumilikdə, bu cür adamların parlamentdə təmsil olunması yaxşı göstərici sayıla bilər. Digər tərəfdən, Milli Məclisə seçilən yeni deputatlar arasında keçmişdə iş adamı olmuş şəxslər də var. Məsələn, onlardan 5 nəfəri iş adamı olub və ilk dəfədir parlamentdə təmsil olunacaqlar. Bunlar Elnur Allahverdiyev, Məşhur Məmmədov, İltizam Yusifov, Anatoliy Rafailov və Bəhruz Məhərrəmovdur. Sözügedən şəxslər əvvəl iş adamı olublar".

***Vidadi ORDAHALLI***

**Növbədənkənar parlament seçkilərində hakim Yeni Azərbaycan Partiyası (YAP) qalib elan olunub. YAP-dan sonra ikinci ən çox mandat alan partiya Vətəndaş Həmrəyliyi Partiyasıdır (VHP).**

# Vətəndaş Həmrəyliyi Partiyası MM-də YAP-dan sonra sayca "ana müxalifət" oldu - partiyanın öz reaksiyası...

***Samir Əsədli:** "Bizim partiyanın əldə etdiyi uğurlar təsadüfi sayıla bilməz"*

Partiyanın lideri, Xalq şairi Sabir Rüstəmxanlı 61 saylı Nefçala Seçki Dairəsindən 49,2 faiz səslə, 69 saylı Cəlilabad-Biləsuvar-Masallı Seçki Dairəsindən Fəzail İbrahimli 51 faiz səslə, 58 saylı Hacıqabul-Kürdəmir Seçki Dairəsindən Rəfael Hüseynov 51 faizlə qalib elan olunublar.

Daha sonra 26 saylı Xətai 4-cü Seçki Dairəsindən BAXCP sədri Qüdrət Həsənquliyev, 26 saylı Sabunçu 2-ci Seçki Dairəsindən Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, 60 saylı Salyan-Neftçala Seçki Dairəsindən Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, 16 saylı Yasamal 2-ci Seçki Dairəsindən "ReAL" Partiyasının üzvü Erkin Qədirli, 87 saylı Ağsu-İsmayıllı Seçki Dairəsindən Vəhdət Partiyasının sədri Tahir Kərimlinin və Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadənin Milli Məclisin üzvü olacaqları gözlənir.

Qeyd edək ki, VHP sədri Sabir Rüstəmxanlı və "ReAL" üzvü Erkin Qədirli mandat alacaq yeni partiyalı deputatlar olacaq. Adları qeyd olunan başqa partiya nümayəndələri ötən seçkilərdə millət vəkili olublar.

Partiyaların göstərdiyi nəticələr Vətəndaş Həmrəyliyi Partiyasının "ana müxalifət" partiyası olduğunu söyləməyə əsas verir. Çünki özünü müxalif kimi təqdim edən bu partiyanın qazandığı mandatların sayı digər müxalif partiyalardan çoxdur. Ancaq müxalif cameədə bu təqdimatla razılaşmayanlar az deyil. Onlar hesab edirlər ki, sözügedən partiyanın çox mandat əldə etməsi onun cəmiyyətdəki fəallığına adekvat deyil. Bəs partiyanın özündən bu barədə nə düşünürlər?

VHP-nin Mərkəzi İcra Aparatının rəhbəri və Siyasi Şuranın üzvü Samir Əsədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, o, "ana müxalifət" kimi təsnifatlandırma ilə razı deyil: "Azərbaycan siyasi palitrası müxtəlifdir. Bu da o anlama gəlir ki, burada müxtəlif baxışların olmasını da normal qarşılamalıyıq. Kim bizim əldə etdiyimiz nailiyyətlə bağlı nə düşünürsə, öz işidir. Bizim partiyanın əldə etdiyi uğurlar təsadüfi sayıla bilməz. VHP ölkədə normal fəaliyyət göstərən, demək olar ki, bütün rayonlarda yerli təşkilatları olan partiyadır. Hətta uzaq Naxçıvanda belə bizim partiyanın yerli təşkilatları var. Əldə etdiyimiz uğurun bir sirri də VHP-nin 1992-ci ildən indiyə kimi öz siyasi kursuna nümayiş etdirdiyi sadiqliklə bağlıdır. Azərbaycanda 4-5 normal fəaliyyət göstərən partiya varsa, onlardan biri də bizim partiyadır. Bizim partiyanın sədri də çox nüfuzlu adamdır. Eyni zamanda, partiya öz ətrafında Milli Azadlıq Hərəkatından çıxan fəalları birləşdirir.




Bu insanlar Hərəkat dövründə necə olublarsa, indi də həmin xəttə sadiqlik göstərirlər. Partiyanın fəaliyyətinə qiyməti əldə etdiyi uğurlara görə verirlər. Bizim partiya uğurlarının sayını artırırsa, buna sevinmək lazımdır. Əminəm ki, partiyamızı Milli Məclisdə təmsil edəcək şəxslər də öz aktiv fəaliyyətləri ilə VHP-nin nüfuzunu daha da artıracaqlar".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Parlament seçkilərində 16 saylı Yasamal 2-ci Seçki Dairəsindən deputatlığa namizəd və hazırda lider olan "ReAL"çı Erkin Qədirli mətbuat konfransı keçirib. E.Qədirli jurnalistlərə bildirib ki, 16 saylı Yasamal 2-ci Seçki Dairəsində seçki səliqəli keçib:**

# Oz qələbəsindən narazılıq edən deputat da gördük - Erkin Qədirli səsini artırdıqlarına görə MSK-ya müraciət edəcəyini dedi...



"Bütün məntəqələri gəzdik, seçki yaxşı keçdi, inzibati müdaxilə, karusel olmadı. Qutuya topa bülleten atılma halı olmadı".

E.Qədirli iddia edib ki, 5 məntəqədə bir sıra problemlər ortaya çıxıb: "Protokolları vermək istəmirdilər. Cəmi 4 məntəqədə mən uduzmuşam. Seçicilərin sayı elan olunanlardan az idi. İki məntəqədə mən cəmi 19 səslə qalib gəlmişəm, o məntəqəyə 49 seçici gəlib. Orada protokolu bizə vermək istəmirdilər. Biz udmuşuq, lakin mənə yığdığımız səsdən daha artıq yazıblar".

E.Qədirli əlavə edib ki, yazılan artıq səsdən MSK-ya şikayət ediləcək: "Dairədə rəqəmlərdə şişirtmələr olub. Mənə qazandığımdan da artıq səs yazıblar. Amma bu şişirdilmiş rəqəmləri hesablamasaq belə, mən yenə də qalib gəlmişəm. Lakin müşahidəçilərimizdən qeydlər götürmüşəm, mənə artıq səslərin yazılması ilə bağlı Mərkəzi Seçki Komissiyasına şikayət edəcəyəm. Bizim dairəmizdə 5 məntəqənin nəticələrinin ləğv edilməsini istəyəcəyik.

Mən deputat mandatından imtina etmək məsələsi ilə bağlı İlqar Məmmədovla və digər dostlarla, müşahidəçilərlə məsləhətləşdim. Bu günə kimi çox vəzifədən imtina etmişəm. Amma bu dəfə halal səsimlə qalib gəlmişəm, buna görə də mandatdan imtina etməyəcəyəm. Mən parlamentə gedirəm".

Erkin Qədirli qeyd edib ki, hakimiyyət onu parlamentdə görmək istəyir: "Bəlkə də buna görə həmin dairədən güclü namizəd irəli çıxarmadılar. Amma mən heç bir pərdəarxası görüşdə, anlaşmada iştirak etməmişəm".

Əslində, E.Qədirlinin açıqlamasında olduqca maraqlı məqamlar var. O həm halal qələbə qazandığını deyir, həm də ona bəzi məntəqələrdən artıq səs yazıldığını iddia edir və bununla bağlı şikayət edəcəyini bildirir. Bu təzadı necə anlamaq olar? E.Qədirlinin bu açıqlamalarından hiss olunur ki, çıxılmaz durumda qalıb. Çünki onun təmsil olunduğu partiyanın rəhbəri İlqar Məmmədov seçkiyə buraxılmadığı üçün növbədənkənar parlament seçkilərilə bağlı sərt fikirlər səsləndirir. Hətta yaxın günlərdə seçkilərin nəticələrini şübhə altına alacaq kütləvi aksiya keçirəcəyini də bəyan edib. E.Qədirli hər an gözləyir ki, partiya onu seçim qarşısında qoysun: ya mandat, ya da "ReAl" Partiyası. Ona görə həm mandatdan keçə bilmir, həm də müxalifliyini qorumağa çalışır. Bütün bunların fonunda da belə təzadlı mövqe ortaya çıxıb. E.Qədirli müxalifliyini qorumaq üçün nəyisə tənqid etmək zorunda qalıb. Çünki sosial şəbəkələrdə də onu parlamentə getməsinə görə tənqid edənlər az deyil. Həm mandatı əldə saxlamaq, həm də kütlənin gözündə enməmək üçün Qədirli öz qələbəsindən belə şikayət etməli olub.

İstənilən halda, bu da unikal bir tələb nümunəsi kimi Azərbaycanın seçki tarixinə yazılmış olacaq. Çünki biz adətən görmüşük ki, namizədlər səslərinin az yazıldığından gileyləniblər. E.Qədirli isə bu mövzuda əsl novatorluq etmiş oldu. İndi görək MSK necə, Erkinin şikayəti əsasında ona artıq yazıldığı iddia edilən səsləri azaldacaqmı...

***Məhəmmədəli QƏRİBLİ***

# Ən fəal və ən passiv seçki dairələri arasında kəskin fərqin səbəbləri - eyni ölkə, eyni qanun, fərqlər isə...

**Məlum olduğu kimi, fevralın 9-da Azərbaycanda VI çağırış parlament seçkiləri keçirildi. Mərkəzi Seçki Komissiyasının açıqlamasına görə, seçkilərdə seçici fəallığı 47,81% təşkil edib. Belə ki, səsvermə hüququ olan 5 milyon 329 min 461 nəfərdən 2 milyon 547 min 982 nəfəri səsvermə hüququndan istifadə edib.**

*"Bəzən hansısa dairədə vətəndaşlar seçkiyə getməkdə həvəsli olmurlar, nəyinsə dəyişəcəyinə inanmırlar"*

***Əli Orucov:*** *"Elə dairələr var ki, namizədlər seçicilərlə aktiv işləyirlər"*



Məlumat üçün qeyd edək ki, 1995-ci ildə Milli Məclisdə I çağırış seçkilərdə qeydə alınan seçici fəallığı 86,05% olub. 2000-ci il noyabrın 5-də II çağırış parlament seçkilərində seçici fəallığı 68,93% olub. 2005-ci il noyabrın 6-da Milli Məclisə III çağırış seçkilərdə ümumi seçicilərin 42,22%-i seçkilərdə iştirak edib. 2010-cu il 7 noyabr tarixində IV çağırış Milli Məclis seçkilərində seçici fəallığı 49,5% olub. 2015-ci il noyabrın 1-də V çağırış seçkilərdə seçici fəallığı isə 55,7% olub.

Bununla yanaşı, son parlament seçkilərində ən aktiv seçki dairəsi 1 saylı Şərur-Sədərək Seçki Dairəsi olub. Bu dairədə 61.4 faiz (46 min 225 seçicidən 23 736 nəfər) seçici fəallığı qeydə alınıb. Ən passiv dairə isə 28 saylı Sabunçu 3-cü Seçki Dairəsidir. Sözügedən Seçki Dairəsində seçici fəallığı 18,6 % (53 min 4 seçicidən 10 299 nəfər) təşkil edib. Bütövlükdə, ölkə üzrə elə dairələr var ki, orada seçici fəallığı yüksək, bəzilərində seçici fəallığı aşağı olub.

Maraqlıdır, dairələrdə seçici fəallığı arasında belə kəskin fərqin səbəbləri nə ilə bağlıdır? Nəzərə alsaq ki, ölkə üzrə eyni gündə seçki keçirilir, o zaman belə fərq nədən irəli gəlir?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, dairələrin bəzilərində seçici fəallığının yüksək, digərlərində isə aşağı olmasının səbəbləri müxtəlifdir: "Bunu bir səbəblə əlaqələndirmək doğru olmaz. Elə dairələr var ki, namizədlər seçicilərlə aktiv işləyirlər. Seçki kampaniyası dövründə fəal təbliğat işi aparırlar. Bu da nəticə etibarilə seçki günü seçici fəallığının artmasına öz təsirini göstərir. Elə dairələr də var ki, orada namizədlərin təbliğat kampaniyası zəif təşkil olunur. Seçiciləri cəlb edə bilmirlər. Ya da bu istiqamətdə yetərincə iş görmürlər. Bu da nəticə etibarilə seçki günü daha az vətəndaşın seçkiyə qatılmasına gətirib çıxarır.

**Bəzən hansısa dairədə vətəndaşlar seçkiyə getməkdə həvəsli olmurlar, nəyinsə dəyişəcəyinə inanmırlar və s. Deməyim odur ki, müxtəlif amillərin burada rolu var. Bəzən müəyyən inzibati resursların da seçkiyə təsiri olur. Yəni büdcədən maliyyələşən təşkilatlarda çalışanlar səsvermədə fəal iştirak edirlər. Elə dairə var ki, orada bu qəbildən olan seçicilərin sayı qismən çoxdur. Bir sözlə, müxtəlif səbəblər üzündən belə fərqlər yaranır".**

***Vidadi ORDAHALLI***

# Milli Məclis partiyalarının sayı 3 vahid azaldı - 12-dən 9-a endi - nə gözlənir...

**Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərinin nəticələri artıq tam məlumdur. MSK-nın fevralın 10-da açıqladığı nəticələrə görə, 125 dairənin hər biri üzrə protokollar tərtib olunub. Qalib gələn namizədlərin partiya mənsubiyyəti üzrə sayına da nəzər salmaq yaxşı olardı.**



***Yeganə Hacıyeva:*** *"Fərqli oriyentasiyalı partiyalar gedib beynəlxalq platformalarda öz əqidədaşları ilə bir fraksiyada təmsil olunurlar ki, bunun da ölkəmiz üçün lobbi dəstəyinə ciddi təsiri olur"*

Altıncı çağırış Milli Məclisə keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyasının (YAP) 74 namizədi qalib gəlib. Digər partiyaların isə qalib gələn namizədlərinin sayına görə siyahı aşağıdakı kimidir:

Vətəndaş Həmrəyliyi Partiyası (VHP) - 3 nəfər, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP) - 1 nəfər, Azərbaycan Demokratik İslahatlar Partiyası (ADİP) - 1 nəfər, Ana Vətən Partiyası (AVP) - 1 nəfər, Böyük Quruluş Partiyası (BQP) - 1 nəfər, Vəhdət Partiyası (VP) - 1 nəfər, Vətəndaş Birliyi Partiyası (VBP) - 1 nəfər, Azərbaycan Demokratik Maarifçilik Partiyası (ADMP) - 1 nəfər.

Milli Məclisə keçirilən növbədənkənar seçkilərdə 41 nəfər bitərəf namizəd qalib gəlib.

Qeyd edək ki, bu seçkilərdə beşinci çağırış Milli Məclisdə təmsil olunan Azərbaycan Sosial Demokrat Partiyası (ASDP), Milli Dirçəliş Hərəkatı Partiyası (MDHP) və Azərbaycan Sosial Rifah Partiyasının (ASRP) heç bir namizədi qalib gəlməyib.

Xatırladaq ki, beşinci çağırış Milli Məclisdə də 125 deputatdan 74 nəfəri Yeni Azərbaycan Partiyasının (YAP) üzvü idi. VHP 2, AVP, ADİP, ADMP, ASDP, ASRP, BQP, BAXCP, MDHP, VP və VBP isə 1 nəfərlə Milli Məclisdə təmsil olunurdular. Parlamentin 39 üzvü isə bitərəf deputatlardan ibarət idi.

Müqayisədən görünür ki, parlamentdə təmsil olunacaq partiyaların sayında 3 vahid azalma müşahidə edilir. Bu amil parlamentin işinə hansı formada təsir edəcək?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə tendensiyanın yaşanmasında bir sıra amillərin rolu var: "Bizdə seçkinin yalnız majoritar qaydada keçirilməsi partiyaların cəmiyyətdəki aktivliyini azaldır. Ancaq ümumi passivliyin fonunda əldə olunan nəticəni də normal saya bilərik. Ötən çağırışla müqayisədə azalma həm də kompensasiya edilib. Ancaq bəzi partiya təmsilçilərinin parlamentə düşməsi qeydiyyat məsələsinə görə rəsmiləşmir. Məsələn, Razi Nurullayev partiya sədri kimi cəmiyyətə təqdim olunur. Ancaq onun rəhbərlik etdiyi partiyanın adı ətrafında mübahisə davam etdiyindən, onun mandatı fərd kimi rəsmiləşir. Eyni sözü "ReAl" Partiyasını təmsil edən Erkin Qədirli ilə də bağlı deyə bilərik. Hər iki şəxsin mandatı parlamentdə təmsil olunan partiyaların adına yazılmır. Çünki onların partiyalarının dövlət qeydiyyatı məsələsi tam həllini tapmayıb. Siyasi partiyaların sayının parlamentdə azalması qanunverici orqanın fəaliyyətinə ciddi təsir etməyəcək.

Ancaq beynəlxalq platformalarda təmsilçilik baxımından parlamentdə təmsil olunan siyasi qurumların çoxluğu daha fərqli palitra yarada bilərdi. Parlamentdə daha fərqli oriyentasiyalı partiyaların təmsilçiliyinin ziyanı yoxdur. Bizdə təəssüflər olsun ki, sağ mərkəzçi mövqedə olan partiyalar çoxluq təşkil edir. Fərqli oriyentasiyalı partiyalar gedib beynəlxalq platformalarda öz əqidədaşları ilə bir fraksiyada təmsil olunurlar ki, bunun da ölkəmiz üçün lobbi dəstəyinə ciddi təsiri olur. Başqa bir səbəb isə partiyaların özünün cəmiyyətdəki passivliyi ilə bağlıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn koalisiya neft bazarına koronavirus təhdidini də aradan qaldıracaq

**Dünya birjalarında neftin qiyməti son günlərdə yenidən əsas müzakirə mövzularından birinə çevrilib. Xüsusən də koronavirusun yayılması neft bazarına hələ də mənfi təsir edir.**

Bu virusun qlobal neft tələbatına mənfi təsir göstərdiyi mühitdə "OPEC+" koalisiyasının istehsalı daha da azaldacağına dair xəbərlərin yayılması fonunda "qara qızıl"ın qiyməti bir az bahalaşıb. Amma "OPEC+"un hasilatı azaldacağı ilə bağlı məlumatlar neftin qiymətini 2,5 faiz artırsa da, "Brent"in qiyməti yanvarın əvvəllərindən etibarən təxminən 20 faiz ucuzlaşıb.

Belə vəziyyətdə təcili tədbirlər görülməsi vacib sayılır. Əks halda neft hasilatçıları ciddi zərərlə üzləşə bilər. Yaranmış durumda OPEC və qeyri-OPEC ölkələrinin Birgə Texniki Komitəsi neft hasilatını daha 600 min barrel azaltmağı tövsiyə edib. Belə ki, Vyanada toplaşan "OPEC+" Birgə Texniki Komitəsinin mütəxəssisləri koronavirusun yayılmasının qlobal neft tələbatına və iqtisadi artıma təsirini müzakirə edib. Məsləhətləşmələr nəticəsində neft hasilatının daha 600 min barrel azaldılması tövsiyə olunub. Artıq əksər böyük hasilatçılar istehsalı azaltmağı vacib sayır. Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirir ki, ölkəsi OPEC-in neft istehsalını daha da azaltmaqla bağlı təklifini dəstəkləyir. O qeyd edir ki, Rusiya koronavirusun səbəb olduğu qlobal neft tələbatındakı azalmanı kompensasiya etmək üçün "OPEC+"un hasilatı dərinləşdirmək təklifinin həyata keçməsində maraqlıdır.

İranın neft naziri Bijən Namidar Zəngənə "OPEC+" koalisiyasının texniki komitəsinin neft istehsalını sutkalıq daha 600 min barrel azaltmaq barədə tövsiyəsini şərh edib. O, İranın OPEC üzvlərinin əksəriyyəti tərəfindən razılaşdırılmaqla neft hasilatının azaldılması qərarını dəstəkləyəcək. İraqın Neft Nazirliyinin sözçüsü Asım Cihad isə qeyd edir ki, Bağdad da neft bazarında sabitliyi təmin edəcək hər cür razılaşmanı dəstəkləyir. O bildirib ki, ölkəsi Çində yayılan koronavirusun qlobal neft tələbatına təsirini yaxından izləyir. İraqın neft bazarında sabitliyi təmin edəcək hər cür razılaşmanı dəstəklədiyini deyən A.Cihad OPEC və müttəfiqlərinin neft bazarında tələb-təklif tarazlığının təmin olunması üçün çalışacağını vurğulayıb. Hasilatın azalmasını dəstəkləyənlərdən biri də Azərbaycandır. Bakı hasilat kvotasını bir qədər də aşağı salmağa hazır olduğunu bəyan edir. 2020-ci ilin yanvar ayından etibarən Azərbaycan gündəlik neft hasilatını 769 min barrel həcmində saxlamalıdır. Lakin Azərbaycan bu rəqəmi bir qədər də azaltmağa hazırdır.

Yuxarıda qeyd olunduğu kimi, OPEC və qeyri-OPEC ölkələrinin Birgə Texniki Komitəsinin neft hasilatını daha 600 min barrel azaltmağı tövsiyə etdiyi bildirilir. "OPEC+" koalisiyası dünya neftinin 40 faizdən çoxunu təmin edir. Xatırladaq ki, OPEC-in baş katibi Məhəmməd Barkindo daha əvvəl martda Vyanada Neft İxrac Edən Ölkələr Təşkilatının iclasının keçiriləcəyini deyib. Lakin iclasın fevralda təşkili istisna edilmir. Hazırkı qiymət isə OPEC-ə üzv ölkələrin əksəriyyətinin dövlət xərclərini ödəmək üçün tələb olunan qiymət səviyyəsindən aşağıdır. OPEC koronavirusun səbəb olduğu neft tələbatındakı azalma səbəbindən çətin günlər keçirir. "Fitch Ratings" beynəlxalq kredit reytinq agentliyi isə bəyan edir ki, kronavirus daha da yayılarsa qlobal neft tələbatı azala bilər. Bu isə Braziliya, Norveç və ABŞ kimi istehsal profisiti olan ölkələrdə hasilatın daha da artmasına səbəb ola bilər.

Neftdəki tədarük bolluğunun mümkün təsirləri koronavirus epidemiyasının nə qədər davam edəcəyindən və "OPEC+" ölkələrinin istehsal səviyyələrini yenidən tənzimləmək imkanlarından asılı olacaq. 2020-ci ildə geosiyasi gərginliklər və iqtisadi proseslər fonunda neftin qiymətinin dəyişkən olacağı gözlənilir. İlkin hesablamalara əsasən, kronavirusla bağlı böhran qlobal neft tələbatının üçdə birini aradan qaldıracaq. Belə ki, Çində yayılan koronavirus səyahətlərə və dolayısı ilə yanacaq istehlakının azalmasına səbəb olur, eyni zamanda, qlobal ticarət dövriyyəsinə də mənfi təsir göstərir. BP-yə görə, bu böhran qlobal neft tələbatının üçdə birini aradan qaldıracaq. Artıq Çinin xam neft emalını 15 faiz azaltdığı bildirilir. Ölkədəki neftayırma zavodları xam neftin emal həcmini təxminən 15 faiz azaldıb. Koronavirusla mübarizə aparan ölkənin qarşıdakı həftələrdə emal həcmini daha da azaldacağı deyilir. Mənbələrə görə, dövlətə məxsus, eləcə də özəl müəssisələr ötən həftə neft emalını gündəlik 2 milyon barrelə endirib.



**Qeyd edək ki, Çin dünyanın ən böyük xam neft idxalçısıdır. Çinin neft emalını azaltması dünyada enerji bazarını sarsıdır. Belə olan halda isə OPEC və müttəfiqləri hasilatı daha da azaltmaqla "qara qızıl"ın qiymətində yuxarı istiqamətli dəyişikliyə nail olmağa çalışır. Hər halda, proseslərin dəqiq inkişaf axarı qarşıdakı günlər ərzində bəlli olacaq. İstənilən halda isə Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn "OPEC+" sazişinin istehsal həcmini aşağı salması vacib sayılır. Məhz bu halda neft qiymətini istənilən həddə çatdırmaq olar.**

***Ramil QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ermənistanın ən millətçi təşkilatlarından biri "Paşinyanın rayonları qaytarmaması tam yanlışdır" mövqeyinə gəldi...

**Ermənistan daxilində cərəyan edən hadisələrin Dağlıq Qarabağ münaqişəsinə hansı formada təsir edəcəyi barədə indi müxtəlif fikirlər səslənir. Amma, faktiki, reallıq budur ki, düşmən ölkədə baş verənlər, istənilən halda, konfliktin çözümü istiqamətində konkret addımlar atılmasını əngəlləyir.**

Qarabağ münaqişəsinin tarixi də göstərir ki, Ermənistan tərəfi daim hansısa daxili məsələni qabardaraq konfliktin çözümü ilə bağlı real addımların atılmasının təxirə salınmasına cəhd edir.

Bu dəfə müşahidə olunan hal budur ki, Baş nazir Nikol Paşinyanın yeni oyunları, yaratdığı konstitusiya qalmaqalı Qarabağ danışıqlarını tormozlayan faktor kimi çıxış edə bilər. Bunu Respublika Partiyasının üzvü Menua Harutyunyan da xüsusi olaraq vurğulayır: "Xalqımız və dövlətçiliyimiz yalnız bir dövlət cinayətkarının əlində əsirdir. Min bir dərd və ağrısı olan ölkədə dövlət büdcəsindən bir neçə milyon dollar ödənilməlidir və referendum etməlidir ki, Nikolun şəxsi kaprizi təmin olunsun. Deməli, eyni parlament Hrayr Tovmasyanı Konstitusiya Məhkəməsinin üzvü seçib, lakin Nikolun fikrincə, Hrayr legitim deyil, budur, həmin bu parlament Armen Sarkisyanı Ermənistan Prezidenti (yeri gəlmişkən, bu seçki zamanı Nikol iddia edirdi ki, bu insan Ermənistan Prezidenti ola bilməz) seçib, Nikolun fikrincə, bu, nəinki legitimdir, həmçinin, bu legitim Prezident Hrayrdan azad olmaq referendumu barədə fərman imzalayır. Nikol xalqımızı nəinki aldadır, həmçinin, lağa qoyur. Yeri gəlmişkən, Nikol həmin bu parlamentin deputatı olub, bu parlamentin legitimliyini qəbul edib, bu legitimlik də onu Baş nazir seçib. Amma Baş nazir indi qanunları saymır, Qarabağ məsələsini kənara atıb cılız işlərlə, şəxsi ambisiyalarının təmini ilə məşğul olur. Belə vəziyyətdə Azərbaycan Qarabağ məsələsində mövqelərini gücləndirdiyi halda, Ermənistanda diqqət tamam başqa məsələlərə yönəlir. Diplomatik hücumunu sərtləşdirən Azərbaycan isə bunu hərbi sahədə də etməyə indi daha çox can atır".

Digər tərəfdən, yaranmış durumda Ermənistanda təzliklə yeni çevriliş olacağının mümkünlüyündən də danışılır. Artıq "Sasna Tsrer" Partiyasının katibliyinin koordinatoru Varujan Avetisyan belə bir bəyanatla çıxış edib. Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin bu vəziyyətin Nikol Paşinyan iqtidarı və Qarabağ münaqişəsinə təsirini belə şərh edir: "Düşünürəm ki, Ermənistanda vəziyyət Nikol Paşinyan üçün heç də ən əlverişli şəkildə inkişaf etmir. Anlamaq lazımdır ki, Ermənistan kifayət qədər resurs olmadan suveren dövlət statusu əldə edib. Ermənistandakı istənilən siyasətçi çox məhdud imkanlara malikdir. Rusiyanın və ya Qərbin xeyrinə öz suverenliyindən imtina etmək? O, dərhal etibarını itirəcək. Lakin Ermənistanın suverenliyinin əsas qarantı məhz Rusiyadır. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) və Avrasiya İqtisadi Birliyində (AİB) iştirak bununla əlaqədardır. Bundan başqa, Rusiyada yaşayan nəhəng erməni diasporu amili də var. Odur ki, Ermənistan Qərbdən daha çox Rusiyadan asılıdır. Bütün bunlar istənilən erməni siyasətçi üçün siyasi manevrləri məhdudlaşdırır. Nikol Paşinyan vektoru dəyişdirməyə çalışmaqla başladı. Bununla da o, suverenliyinə müəyyən qədər zərbə vurdu və hətta öz mövqeyini dayanıqsız etdi. Əlbəttə, Ermənistanda millətçilik yüksəkdir, lakin Nikol Paşinyan resursları azaldıb. Sözlərdə suverenlik nə qədər çoxdursa, əməldə bir o qədər azdır. Ermənistan qarşısını almaq mümkün olmayan bir neçə məhdudiyyət arasında bağlı qalıb. Belə vəziyyətdə Qarabağ Paşinyan üçün dalandır. Nə Rusiya, nə Qərb, nə də Azərbaycan İrəvana tərəf getməyəcək. Hətta Dağlıq Qarabağın erməni icmasının danışıqlar prosesinə qoşulması məsələsində də. Bəli, Ermənistanda belə arzu var. Ancaq niyə ağıllı heç nə eşitmədik? İlk mərhələdə beş rayonun Azərbaycana qaytarılması barədə razılaşma mövcud idi. Bu, Dağlıq Qarabağ probleminin həllinə başlamaq üçün əla plan idi. Nikol Paşinyan bu təklifi özündən kənarlaşdırdı və millətçilərin tərəfini tutdu, Rusiyanı tənqid etdi. Nəyə nail oldu? Paşinyanın ölkəsində çətin bir vəziyyət yarandı". Ekspert "media" portalına bildirir ki, indiki halda, Azərbaycan çox rasional davranır: "Bu ölkənin başçısı İlham Əliyev siyasi proseslərin məharətlə dərkini nümayiş etdirir. Bakı səhv etmir və qalib gəlir, daha çox xal qazanır. Nikol Paşinyan üçün kömək yalnız Azərbaycanın mümkün səhvlərinə görə gələ bilərdi, ancaq səhvlər olmadı və yoxdur. Razılaşmaların pozulması kimin xoşuna gələ bilər? Buna görə Rusiya yavaş-yavaş və ehtiyatla Nikol Paşinyana yanaşır. Ermənistan Baş nazirinin çıxış yolu azalır. Ancaq məsələ hətta Paşinyanda da deyil. Qarabağ ətrafında vəziyyətin sərbəst olması istənilən erməni lideri üçün qaçılmaz olmalıdır. Dağlıq Qarabağ ətrafındakı 5 rayonun geri qaytarılması Paşinyana kömək edə bilər. İstənilən halda, Rusiyanın İrəvana münasibəti yaxşılığa doğru dəyişərdi. Türkiyə ilə də bəzi proseslər başlaya bilərdi. Bu jesti etmək vaxtı çatıb. Bunu Ermənistanda kimin etməsindən asılı olmayaraq, addımın özü, əvvəllər əldə edilmiş razılaşmaların gözlənməsinin təsdiqi vacibdir. Güman edildiyi kimi, Nikol Paşinyan "devrilib" və yerinə yenidən anlaşmaya əməl etməyən yeni bir insan gəlsə, onun hakimiyyəti daha da qısa olacaq. Qarabağla bağlı konsensusa gəlmək lazımdır, bu aydındır. Kim inad etsə, Ermənistan üçün daha da kritik bir vəziyyət yaradacaq".

Eyni mövqeni Yaxın Şərq və Qafqaz məsələləri üzrə ekspert Stanislav Tarasov da bölüşür. O vurğulayır ki, Paşinyanın qeyri-adekvat açıqlamaları, ölkə daxilində addımları, sadəcə, Qarabağ münaqişəsini əngəlləməyə xidmət edir: "Biz Dağlıq Qarabağın vəziyyətini diqqətlə izləyirik, biz dinləyirik. Xüsusilə də onun Qafanda baş tutmuş mətbuat konfransındakı şərhlərini çox diqqətlə dinləmişik. Konfrans zamanı o, "Madrid prinsipləri" barədə danışarkən söylədi ki, bunlar Serj Sarkisyanın siyasi mirasıdır. Lakin Paşinyan "Madrid prinsipləri" ilə razı deyilsə, qoy belə də desin. Niyə məhz bu əsas üzərində Azərbaycanla danışıqları davam etdirirsən? Sonuncu dəfə Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri Məmmədyarov və Mnatsakanyan Cenevrədə görüşüblər və təxminən 11 saat danışıblar. Onlar 11 saat nə barədə danışıblar? Əgər o, bu layihəni qəbul etmirsə, qoy "biz "Madrid prinsipləri"ni tanımırıq, biz indi Azərbaycanla yeni gündəlik hazırlayırıq" və sair desin. Axı sən "inqilabçı"san, "demokrat"san. İndiki Qarabağ mövqeyin isə bizi narahat edir. Çünki bu halda Paşinyan Qarabağ məsələsinin hərbi həllinə zəmin hazırlayır".

Amma artıq dəfələrlə deyildiyi kimi, məsələnin hərbi həlli ən çox elə Ermənistanın özünə ziyandır. Çünki bu halda düşmən ölkənin kifayət qədər sərt zərbələr alması qaçılmaz sayılır. Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, İstanbulun Türkiyə Böyük Millət Məclisindəki millət vəkili Şamil Ayrım bu xüsusda qeyd edir ki, Azərbaycan Ordusu 24 saat içində bütün Ermənistanı ələ keçirə bilər. Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına baxış bucağı barədə danışan millət vəkili bildirib ki, müharibə, hərb ən son çıxış yolu ola bilər: "Vətəndaşlarımızın burnunun belə qanamasını istəmirik. Müharibəni ağlımızdan belə keçirmirik. Çünki bugünkü savaşlar masa başında qazanılıb. Problemin diplomatik yolla həll edilməsi vacibdir. Çünki regionda balanslaşma var. Azərbaycanın Rusiya və Türkiyə ilə münasibətləri yaxşıdır. Eyni zamanda, Rusiya Ermənistanın daxili məsələlərinə, təhlükəsizliyinə, elektrik enerjisinə belə nəzarət edir. Ona görə Qarabağ həssas məsələdir. Amma şərtlər dəyişərsə, türk millətinin qarşısını kəsə bilməzsiniz. Bu fərqli bir şeydir. Qarabağ münaqişəsi başlandığı zaman könüllü şəkildə gələn minlərlə insan var idi. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri heç bir iki ölkə arasında olmayan əlaqədir. Borcumuz bu münasibətlərə kölgə salacaq xainlərə qarşı savaşmaqdır. Bu ortamı itirməməliyik. Yaşadığımız coğrafiyada bizə yuxu yoxdur".



Elə erməni polkovnik Qriqor Qriqoryan da Azərbaycan və Türkiyə faktorunun Ermənistanı daha çox sıxışdırmaqda oduğunu bildirir. O qeyd edir ki, Paşinyan danışıqlarda nəticə verən addım atmasa, Azərbaycan istədiyini savaş yolu ilə alacaq. Onun sözlərinə görə, Azərbaycan uzun müddətdir hərbi əməliyyatlara hazırlaşır: "Məncə, yaxın 3-4 ay ərzində Azərbaycan tərəfindən hərbi əməliyyatlara başlanıla bilər. Hərbi əməliyyatların başlaması halında Rusiyadan dəstək görməsək, Azərbaycan və Türkiyə Ermənistanı məhv edəcək. Rusiyanın Gümrüdəki hərbi bazası bizim xilas mənbəyimizdir. Bəzi axmaq insanlar isə bunun bizə lazım olmadığını deyirlər. Əgər rus qoşunlarını Ermənistandan çıxarsalar, Azərbaycan Ordusu 2 saat ərzində İrəvanın mərkəzinə çatacaq. Bu vəziyyətdə Paşinyanın Rusiya ilə münasibətləri pisləşdirməsi oturduğun budağı kəsməyə bənzəyir. Bu səbəbdən Rusiyanı incitmək olmaz".

Bütün bu qeyd edilənlər Ermənistanda Nikol Paşinyan hakimiyyətinin siyasətindən, o cümlədən, Qarabağ məsələsinə yanaşmasından ciddi narazılıq olduğunu göstərir. Çünki bu siyasətin Ermənistanı məhvə aparmasını, təhlükəli savaşa doğru itələməsini görənlər az deyil. Bu səbəbdən Ermənistan daxilində Paşinyana, onun Qarabağ siyasətinə getdikcə güclü bir müxalifət formalaşır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan demokratiya deyə-deyə məhkəmə-hüquq sistemini tam nəzarətə götürür, Avropa isə susur...

**Ermənistan mediasında hələ ötən ildən Nikol Paşinyanın 2020-ci ildə konstitusiya referendumu keçirəcəyi barədə verilən məlumatlar və bunun ölkədə avtoritarizmə gətirib çıxaracağına dair verilən proqnozlar artıq özünü tam doğruldur.**

Bu istiqamətdə atılan addımlar göstərir ki, baş nazir yeni konstitusiyanın qəbulundan sonra ölkədə hakimiyyət bölgüsünü yenidən formalaşdırmağı və növbədənkənar prezident seçkiləri keçirməyi planlaşdırır. Bununla da konstitusiyaya ediləcək əlavə və dəyişikliklər Nikol Paşinyana məhkəmə-hüquq sisteminə nəzarəti artırmaq imkanı yaradacaq.

"Qraparak" qəzeti isə baş nazirin konstitusiyanı dəyişməklə özünə daha monolit hakimiyyət formalaşdırmağa hazırlaşdığını yazır. Bu arada, müəyyən müddətdir Paşinyanla Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan arasında yaranan qarşıdurma artıq daha gərgin mərhələsini yaşamaqdadır. Belə ki, uzunmüddətli mübarizədən sonra Ermənistan parlamentinin təcili iclasında Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin istefasına dair referendum keçiriləcəyi barədə qanun layihəsi təsdiq edilib. Qeyd edək ki, Ermənistan Konstitusiyasına "Mənim addımım" fraksiyası tərəfindən hazırlanmış düzəlişlərə əsasən, Konstitusiya Məhkəməsi sədrinin və üzvlərinin səlahiyyətlərinə xitam verilməsi nəzərdə tutulur. Paşinyan özü parlamentdə çıxışı zamanı Tovmasyanın üçüncü prezident Serj Sarkisyanın tərəfdarı olduğunu və konstitusiya mətnini onun maraqlarına uyğun dəyişdiyini iddia edib: "Sarkisyanla Tovmasyan arasında belə bir razılaşma əldə olunub ki, məhkəmə sədri ona ölkəyə ömürlük rəhbərlik etməsinə şərait yaradan mətn hazırlamalı və həmin mətn 2035-ci ilədək onu qorumalıdır". Amma Tovmasyan bunları rədd edir və baş verənləri siyasi təqib kimi xarakterizə edir. "İrates" qəzeti də yazır ki, hökumət islahatları deyil, köhnə qvardiyadan intiqam və qisas yolunu seçib. Elə bu səbəbdən prezident Armen Sarkisyan konstitusiyada dəyişiklik edilməsi barədə referendum keçirilməsinə qarşıdır. "Milli Təhlükəsizlik" partiyasının sədri Qarnik İsaqulyan bu xüsusda bildirir: "Mən hələ çoxdan 2018-ci ilin aprel-may hadisələrini konstitusiya sisteminin devrilməsi kimi qiymətləndirmişəm. Bu, hakimiyyəti zorla ələ keçirmə olub və bunun birincisi icra hakimiyyətinə qarşı həyata keçirilib. Bu, daha sonra dekabrda qanunverici hakimiyyətə qarşı həyata keçirildi. İndi də Nikol Paşinyan prezident Armen Sarkisyanı konstitusiyada dəyişiklik edilməsi barədə referendum keçirmək lahiyəsini imzalamağa məcbur edir. Ermənistan hakimiyyəti bu cinayətə mümkün qədər çox insan cəlb etməyə çalışır".

Ermənistan mediası yazır ki, parlamentin səs çoxluğunu təşkil edən böyük əksəriyyət həm də Armen Sarkisyanı konstitusiya dəyişiklikləri prosesində iştirak etmə səlahiyyətlərindən məhrum edən qanunvericilik dəyişikliyi təklif edir. Bu dəyişikliyin səbəbi, Sarkisyanın dəyişiklik paketinin konstitusiyaya uyğunluğunu yoxlamaq üçün Konstitusiya Məhkəməsinə müraciət etməsinin qarşısını almaqdır. Başqa sözlə, söhbət Sarkisyana etimadsızlıqdan gedir. Bu fonda, Sarkisyan vəziyyətin həllinin yalnız hüquqi və konstitusiya sahəsində tapılmasının vacibliyini ifadə edərək, vacib olanın təkcə məqsədə deyil, həm də ona çatmaq üçün vasitə olduğuna diqqət çəkib. Erməni siyasi ekspert Aram Amatuni məsələ ilə bağlı bildirib: "Maraqlıdır ki, bundan əvvəl Paşinyan eyni mövzunu şübhəsiz dominant olduğu Avropa Şurasının prezidenti ilə telefon danışığı zamanı müzakirə edib. Maraqlıdır ki, son günlər hakimiyyətə Avropa strukturlarından, Avropa Şurasının Venesiya Komissiyasından və AŞPA həmməruzəçilərindən bir o qədər də xoş olmayan siqnallar daxil olub". Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyan isə bildirir ki, ölkədə haqq və hüququn qətlinə cəhd göstərilib: "Nəticələr çox ağır olacaq. Ölkəmizin hüquqi təhlükəsizliyi zəifləyəcək və beynəlxalq reputasiyamıza zərbə vurulacaq".

"168 jam" nəşri isə yazır ki, Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyana qarşı Paşinyanın mövqeyi onun ən qanunsuz hərəkətlərə imza atmasına gətirib çıxarır: "Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın mənzilində axtarış aparılması ilə Nikol Paşinyan nəinki "qırmızı xətt"ə daxil oldu, hətt onu tamamilə dağıtdı. Paşinyan bununla misli görünməmiş bir addıma imza atdı. Hrayr Tovmasyanın da dediyi kimi, son 200 il və ya daha çox müddətdə dünya tarixində ən yüksək məhkəmə orqanının rəhbərinin cinayət məsuliyyətinə cəlb olunduğu bir hadisə baş verməyib. Bu "qırmızı xətlərin" məhv edilməsi bir çox kritik nəticələrə səbəb olur və bunlardan ən vacibi olanı dövlətin öz mövcudluğunu dayandırmasıdır.



**Dövlətin əsas vəzifəsi məhz bu "qırmızı xətləri" çəkmək və onları müşahidə etməkdir. Həmin xətləri çirkləndirmək və dağıtmaqla Nikol Paşinyan dövlətin bütün funksiyalarını və meyarlarını məhv edir. Yeri gəlmişkən, bunun başqa bir sübutu çoxsaylı vacib problemlərin müzakirə olunduğu parlamentdə "quzuların susması" idi. Müxalifət bir daha müxalifət olduğunu yüksək səslə sübut etməyə çalışdı, amma bu hay-küyün içində özünün ölümünü hiss etmədi".**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# İlk Cümhuriyyət dövründə Ermənistan üçün qoparılmış torpaqlarımız...

## *Cəbi Bəhramov: "Zəngəzurun ermənilərə verilməsi, əslində isə sadəcə, Sovet Rusiyasının təzyiqi ilə "bağışlanması" istiqamətində daha bir ciddi addım 1920-ci il dekabrın 1-də atıldı"*

**Zaman-zaman tarixi torpaqlarımıza iddialı olan ermənilər öz havadarlarının dəstəyilə Azərbaycan ərazilərinə sahibləniblər. Onlar bu torpaqların gerçək sahibləri deyillər, buna baxmayaraq, qəsb etdikləri torpaqlarımızı özlərinki saymaqda davam edirlər. Hiylə, məkrlə, özlərinin və arxa-dayaqlarının zoru gücünə qəsb etdikləri torpaqlarımızı işğalda saxlayırlar.**

## II yazı

Əsrin əvvəllərində ermənilər Azərbaycanın xeyli ərazisini, o cümlədən də İrəvanı və Zəngəzuru ələ keçirməyə müvəffəq olublar. Azərbaycan xalqının tarixi torpağı olan Zəngəzur mahalının ermənilərə verilməsi həqiqətən də tariximizdə ən faciəli səhifələrdən biridir. Tarixi torpaqlarımız üzərində qurulan Ermənistan Respublikası bu gün nəinki Azərbaycan, Cənubi Qafqaz, eləcə də bütün dünya üçün təhlükə saçır. Bu təhlükəli dövlətə isə "Azərbaycan torpaqlarını boşalt, işğaldan azad et" deyən bir beynəlxalq qurum tapılmır.

Zəngəzurun ermənilərə verilməsi Azərbaycan xalqına qarşı edilən çox böyük ədalətsizlikdir. Bu ədalətsizliyə görə isə ermənilərlə bərabər məsuliyyət daşıyan dövlətlər var.

Zəngəzurun tarixini araşdırarkən onun uzun əsrlər əvvəl Cavidan, Cavanşir və Babək dövründə Xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi olduğunu görürük. Zəngəzur 30 ildən artıq sürən qanlı döyüşlərin məkanı olub. Burada, eyni zamanda, atəşpərəstliyin ən məşhur məbədgahları yerləşib, ermənilər bu abidələrin izlərini dönə-dönə silməyə cəhd göstəriblər, bəlkə də indi orada bir dənə də olsun atəşpərəstlik izləri yoxdur. Ərəblər məhz Cənubi Azərbaycan-Naxçıvan-Biçənək-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edərək o vaxt Alban, Arran adlanan Şimali Azərbaycanı zəbt ediblər.

1236-cı ildə monqol-tatarlar, 1395-ci ildə Əmir Teymur Qarabağ və Zəngəzuru çox böyük itkilər bahasına tutdu, onun qoşunlarına qarşı çox dirəniş göstərdiklərinə görə bu yerləri xarabazara çevirdi, 10 min ailəni buradan imperiyasının şərqinə - Əfqanıstana köçürmək əmri verdi. Teymurun bu yürüşünü canlı görüb yazıya alan Foma Mesoplu "Əfqan tarixi"ndə, Yesay Həsən Cəlal "Alban ölkəsinin qısa tarixi"ndə bu köç haqqında məlumat veriblər. Təkcə 4 min ailə Qəndəhar yaxınlığında məskən saldı. Ən maraqlısı odur ki, yerli əhali bu köçürülənləri öz adları ilə "ağvan" çağırırdı və bu ad sonra fonetik dəyişimə uğrayaraq, bütöv bir xalqın və ölkənin adını, ünvanını dəyişib "əfqan"a çevirdi.

Zəngəzur Qaraqoyunlu (1410-1468), Ağqoyunluların (1468-1502), 1502-ci ildə Səfəvi qızılbaşlarının hakimiyyəti altına düşdü. 1420-ci ildə Ərzurumda Ağqoyunlu hökmdarı Qara Osmanı məğlub edib Naxçıvan və Zəngəzur ellərini "soyurğal" alan Qara İsgəndər çoxlu sayda erməni ailəsini Ararat və Sünikə köçürdüb yerləşdirdi. Osmanlı və Səfəvilər arasında Qarabağ-Zəngəzur uğrunda uzun sürən qanlı döyüşlər getdi, bu səbəbdən o dövrlərə aid "Müfəssəl dəftər"lərdə Zəngəzurun əksər yaşayış məntəqəsinin boşaldığı, əhali yaşamadığı, xarabalıqlara çevrildiyi qeyd edilib.

Bu, orta əsrlər dövrünə kiçik bir gəzişmə idi. Bunu ona görə qeyd etdik ki, bu yerlərin ermənilərlə heç bir tarixi əlaqəsinin olmadığını sizə göstərək.

Bütün tarixi sənədlər, faktlar, kitablar, tarixçi-alimlərin tədqiqatları birmənalı olaraq göstərir ki, Cənubi Qafqaz ərazisində heç zaman Ermənistan deyilən dövlət olmayıb və ermənilər bu ərazilərə sonradan köçürülüblər. Tarixçilər vurğulayırlar ki, 1917-ci ilin fevralında Rusiyada baş verən burjua-demokratik inqilabından sonra imperiya dağılmış və onun keçmiş ərazilərində yaşayan bir sıra xalqlar öz müqəddəratlarını təyin etmək hüququ əldə ediblər.

AMEA A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Cəbi Bəhramovun qeyd etdiyinə görə, 1917-ci ilin martından 1918-ci il mayın 26-dək Zaqafqaziya Federasiyası tərkibində Azərbaycan, Gürcüstan və 1804-1813, 1826-1830-cu illərdə və XX əsrin I yarısında Azərbaycan ərazilərinə (İrəvan, Naxçıvan və Qarabağ) keçmiş Rusiya və sovet imperiyalarının hərbi-strateji maraqlarını təmin etmək məqsədilə köçürülən ermənilər birləşdilər... "...Düşünürəm ki, Azərbaycan Xalq Cümhuriyyətini yaradanların bir çoxu bu tarixi çox gözəl bilirdi. Digər tərəfdən, 1918-ci ilin may və sentyabr aylarında Cənubi Qafqazda yaranmış siyasi vəziyyət Azərbaycanın xeyrinə olduğu halda belə, onlar bundan istifadə edib İrəvan şəhərini güzəştə getməyə bilərdilər. Amma çox təəssüf! Qeyd etmək lazımdır ki, İrəvan şəhəri və quberniya əraziləri güzəştə gedildikdən sonra 1918-ci il mayın 28-də özünün müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 99.908.86 kvadratkilometr təşkil edirdi. 13.983.10 kvadratkilometr ərazi isə mübahisəli ərazi kimi qəbul olunaraq gələcək danışıqlar prosesində həll olunması nəzərdə tutulmuşdu. Ermənistana güzəşt edilən İrəvan quberniyasının ərazisi 7.913.17 kvadratkilometr təşkil edirdi. Edilən güzəştdən sonra ermənilər Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin Ermənistana birləşdirilməsi iddiası ilə çıxış etdilər. Lakin 1918-1920-ci illərdə İrəvan quberniyasından başqa əraziləri ələ keçirə bilməyən ermənilər 1920-ci il aprelin 28-də Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bolşeviklərin himayəsi ilə yeni ərazilər əldə etməyə nail oldular. Sovet Rusiyası hökuməti Gürcüstan və Ermənistan missiyaları ilə ərazi məsələlərini Azərbaycan SSR hökumətindən gizli aparırdı. Ən dəhşətlisi isə o idi ki, Azərbaycan nümayəndə heyəti belə danışıqlara cəlb edilərkən onları ya ermənilər, ya da gürcülər təmsil edirdilər. Azərbaycanlılar isə nə ermənilərin, nə də ki, gürcülərin nümayəndə heyətlərinin tərkibinə daxil edilmirdilər.



1920-ci il avqustun 10-da İrəvan şəhərində Sovet Rusiyası ilə Ermənistan arasında müqavilə imzalanarkən bir sıra diplomatik sənədlərin də sübut etdiyi kimi, burada Azərbaycanın milli-dövlət mənafelərinə ciddi qəsdlər edilərək, Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi planlaşdırılmışdı. Bu zaman Sovet Rusiya hökuməti S.Orconikidzenin belə bir iddiasından çıxış edirdi ki, "…məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər. İrəvandakı danışıqlar tərəfləri gələcək sülh müqaviləsini tanımağa məcbur edən protokolun imzalanması ilə qurtardı ki, həmin sazişlə də Ermənistan Qarabağdan imtina etməli, ancaq Zəngəzur və Naxçıvanı almalı idi. Əslində, Azərbaycanın tarixi torpaqlarının Ermənistana verilməsi planı Leninin razılığı ilə Stalin tərəfindən hazırlanmışdı. Çünki sonrakı illərdə bu torpaqların hissə-hissə zəbt olunması və bu ərazilərdə yaşayan əhalinin deportasiyası da Stalin tərəfindən həyata keçirilmişdi".

C.Bəhrəmovun sözlərinə görə, 1920-ci il noyabrın 4-də Stalin, Orconikidze, Qabrielyan, Leqran, Ə.Qarayev və başqalarının iştirakı ilə keçirilən iclasda Rusiya ilə Ermənistan arasındakı müqavilənin şərtlərinə toxunularkən Stalinin fikri əsasında belə bir qərar qəbul edilmişdi: "Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi haqqında təklif olunan maddə nə siyasi, nə də strateji cəhətdən sərfəli deyildir və yalnız son halda baş tuta bilər".

C.Bəhramov vurğulayır ki, iclasda, həmçinin, Siyasi Büronun Naxçıvan və Zəngəzura aid fikrinin əsaslandırılmasını hazırlamaq N.Nərimanova həvalə olunmuş, habelə Stalinin bu məsələ ilə RK(b)P MK ilə danışıqlar aparmasınadək Ermənistana təqdim edilən müqavilə barədə qəti qərar çıxarmamaq razılaşdırılmışdı. "Bu qərarın özü də bir daha göstərir ki, Azərbaycan torpaqları hərraca qoyulmuşdu. Lenindən sonra SSRİ dövlətinə rəhbərlik edən Stalin bu hərracın təşkilatçısı kimi "Mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm" - deyə Azərbaycana öz düşmən mövqeyini bildirmişdi.

Həmin qərarın "b" bəndində yazılırdı: "Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir". Qərarın "q" bəndində Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi, "d" bəndində isə Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verildiyi göstərilirdi. Zəngəzurun ermənilərə verilməsi, əslində isə sadəcə, Sovet Rusiyasının təzyiqi ilə "bağışlanması" istiqamətində daha bir ciddi addım 1920-ci il dekabrın 1-də atıldı. Həmin gün Bakı Sovetinin Ermənistanda sovet hakimiyyətinin qurulması münasibətilə keçirilən təntənəli "tarixi" iclasında N.Nərimanov bəyanatla çıxış etdi. Lakin qeyd etmək lazımdır ki, N.Nərimanovun bəyanatı Ermənistanda yaxın və uzaq gələcəkdə Dağlıq Qarabağla əlaqədar məsələ qaldırmaq məqsədilə verilmişdi. Çünki İrəvanda erməncə nəşr olunan "Kommunist" qəzetinin 1920-ci il 7 dekabr tarixli nömrəsində saxtalaşdırılmış məzmunlu yazı dərc edilmişdi. Sonralar N.Nərimanov özü bəyanatda elan edilən faktların saxtalaşdırılmasına etiraz etmişdi. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan torpaqlarının Ermənistana bağışlanmasını həyata keçirən Stalin Bakı Sovetinin 1920-ci il dekabrın 1-də qəbul etdiyi qərara münasibətini belə ifadə etmişdi: "Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir". Göründüyü kimi, əgər XI Qızıl Ordunu Azərbaycanı işğal etmək üçün A.Mikoyan dəvət etmişdirsə, ondan sonra onun torpaqlarını siyasi hərraca qoyan Stalin olub. 1920-ci il dekabrın 2-də İ.Stalinin "Azərbaycanın fatehi" adlandırdığı S.Orconikidze Leninə və Stalinə Bakı Sovetində qəbul edilən qərarın məzmununu çatdırmışdı. Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi elan edilən kimi həyata keçirilmədi. N.Nərimanov ZSFSR İttifaq Sovetinin sədrlərindən biri olarkən Leninə yazdığı məktubda "Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana güzəştə gedir və düzəlməsi mümkün olmayan həlledici səhvdir" - deyə etiraf etmişdi.

Ermənilər Zəngəzurun ələ keçirilməsini asanlaşdırmaq və sürətləndirmək məqsədilə qəzanın onlar tərəfindən tutulan sahələrində möhkəmlənərək bölgənin digər hissələrində - Aşağı Zəngəzurda Kürdüstan yaradılması "ideya"sını irəli sürmüşdülər. Əslində, əsas məqsəd Rusiyanın Azərbaycanda yenidən möhkəmlənməsini təmin etməkdən, bu niyyətlə də Azərbaycanın parçalanması və daim təzyiq altında saxlanmasından, Zəngəzurun tədricən, hissə-hissə Ermənistana verilməsinə nail olmaqdan ibarət idi.

Zəngəzurun və digər ərazilərin itirilməsi o zamankı Azərbaycan rəhbərliyinin 1920-ci il 1 dekabr tarixli bəyanatı ilə verdiyi vədə öz sərvətlərinin qapılarını Ermənistanın üzünə geniş açmasına dərhal əməl etməsi, hələ müharibəyə və daşnakların ərazi iddialarına son qoyulmasının, ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər qurtarmamış "qonşu və dost xalqa" hərtərəfli yardım göstərilməsindən ibarətdir. Yuxarıda qeyd edildiyi kimi, Zəngəzurun Ermənistana verilməsi rəsmən elan olunsa da, qəzanın onun idarəçiliynə keçməsi dərhal baş vermədi. Belə ki, 1921-ci il yanvarın 12-də Azərbaycan KP MK Siyasi və Təşkilat bürolarının iclasında Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili haqqında qərar çıxarıldı. Nəhayət, uzun müzakirələrdən sonra Zəngəzur qəzasının köhnə inzibati sərhədlərdə saxlanması qərara alındı. Zəngəzurla bağlı qeyri-müəyyənlik 1927-ci ilə qədər davam etdi. Zəngəzurun azərbaycanlı əhalisini sıxışdırmaqda davam edən ermənilər bununla kifayətlənməyərək sonralar bir sıra ərazilərin də ələ keçirilməsinə nail oldular".

Q.Cəbiyevin qeyd etdiyinə görə, belə ki, Zaqafqaziya MİK Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasında Mehri-Cəbrayıl qəzasında 24 kəndin, 1927-ci il 20 iyun tarixli iclasında isə Zəngəzur-Kürdüstan qəzasının 1.065 desyatin ərazisinin bu və ya digər qəzalara aid edilməsi məsələləri müzakirə edildi. "Yenə də bu qanunverici hakimiyyət orqanının 1929-cu il fevralın 18-də M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyatzadə, M.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasında Mehridə erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun üç kəndi - Nüvədi, Ernəzir və Tuğut Ermənistana verildi. 1938-1939-cu illərdə Ernəzir kənd kollektiv təsərrüfatı Nüvədi kəndi, Tuğut kəndi isə ermənilər yaşayan Astazurla birləşdirildi, hər iki kəndin əhalisi doğma yerlərindən Nüvədi, Əldərə və Astazur kəndlərinə köçürüldü. Beləliklə, Zəngəzurun cənub-qərb hissəsindəki torpaqların da ermənilərə "bağışlanması" və burada Mehri rayonunun təşkili ilə Azərbaycan özünün tərkib hissəsi olan Naxçıvandan ayrı salındı, bu bölgə ilə əlaqə çətinləşdi. Zəngəzurun bir hissəsinin ermənilərin əlinə keçməsi ilə Şimali Azərbaycan parça-parça edildi, onunla Türkiyə arasında əlaqə pozuldu, torpaqlarımızın sonrakı işğalı üçün yeni zəmin yaradıldı…" - deyə C.Bəhramov vurğuladı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Sahibkarlığın inkişafı istiqamətində atılan addımlar fonunda özəl sektorun ölkə iqtisadiyyatında xüsusi çəkisinin artması müşahidə olunur. Elə dövlət də prosesin məhz bu istiqamətdə cərəyan etməsində xüsusi maraqlı tərəf qismində çıxış edir.**

# Bankların regionlarda kredit siyasətindəki xaosa son qoyulur...

Amma faktdır ki, bu istiqamətdə müəyyən problemlər də var. Xüsusən də regionlarda sahibkarların banklar tərəfindən kreditlə təmini istiqamətində çətinliklər özünü göstərir.

Faktdır ki, hələ də sahibkarların regionlarda kredit təminatında çətinlikləri var. Bu fonda regionlarda çalışan sahibkarları maraqlandıran əsas məsələlərdən biri banklardan kredit götürərkən faizlərin yüksək olması və girov problemidir. Sirr deyil ki, regionlarda iş adamlarının girov kimi təqdim etdiyi əmlaklar bankları qane etmir. Daha bir məsələ isə girov kimi təqdim edilən əmlakların likvidliyinin aşağı olmasıdır. Belə vəziyyət, nəticə etibarilə, sahibkarların kredit götürməsini çətinləşdirir. Bu durum dövləti də ciddi şəkildə narahat edir.

Xatırladaq ki, Prezident İlham Əliyev də "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxışı zamanı bu mövzuya xüsusi toxunub: "Rayon və kənd yerlərində təklif olunan girov əmlaklar bir çox hallarda banklar tərəfindən girov kimi qəbul edilmir. Onlar Bakıda girov əmlak istəyirlər. Buna son qoyulmalıdır. Burada heç bir ayrıseçkiliyə yol vermək olmaz. Ona görə aidiyyəti qurumlar bu məsələ ilə də ciddi məşğul olsunlar".

Ekspertlər bu xəbərdarlıq fonunda rayon yerlərində əmlakların banklar tərəfindən girov kimi qəbul edilməməsi probleminin əsaslı surətdə həllini gözləyirlər. Bu isə regionlarda sahibkarlığın inkişafı baxımından kifayət qədər vacib sayılır.

Azərbaycanda Regional İnkişaf Mərkəzinin sədri Çingiz İsmayılov bu xüsusda "Sputnik" portalına bildirib: "Rayonlardakı obyektlərlə paytaxtdakı obyektlərə olan tələbat eyni dərəcədə deyil və səbəb budur. Amma dövlət başçısı haqlı olaraq bu məsələdən danışıb. Vətəndaşlar hansı şəhər və rayonda yaşamalarından asılı olmayaraq, eyni hüquqlara malikdirlər. Bankların bu cür mövqeyi rayonlarda yaşayan insanların haqlarına təsir edir və bu da iqtisadi və sosial baxımdan müəyyən gərginliyin yaranmasına səbəb olur. Ona görə də düşünürəm ki, dövlət başçısının belə bir mesajı banklar tərəfindən düzgün qəbul ediləcək.

Banklar yalnız öz mənfəəti haqqında yox, ölkənin gələcəyi, sosial-iqtisadi durumu, davamlı inkişafı haqqında da düşünməlidirlər. Çünki yalnız bu halda bankların davamlı gəlir əldə etmək imkanları olacaq. Regionlarda insanların iqtisadi və sosial problemlərinin həll edilməsində banklar hansısa çətinlik yaradırsa, bu, son nəticədə məhz elə banklara da zərbə vuracaq. Banklar uzunmüddətli strategiya qurmalıdırlar. Banklar bilməlidirlər ki, regionların sosial-iqtisadi inkişafı onların maliyyə problemlərinin, maliyyə məsələlərinin həll edilməsinə şərait yaradır". O bildirib ki, görünür, perspektiv baxımından bankların inkişaf strategiyası yoxdur: "Bunlar qısa müddət ərzində gəlir əldə etməyə çalışırlar. Bunu aradan qaldırmaq lazımdır. Banklar iki məsələni vahid bir sistem kimi həll etməlidirlər. Bir tərəfdən, öz gəlirlərini təmin etməli, digər tərəfdən, ölkədə maliyyə-iqtisadi şəraitin yaranmasına dəstək verməlidirlər ki, əhalinin rifahı qalxsın. Əhalinin yaşayış rifahının qalxması da bankların fəaliyyəti üçün imkanlar yaradır. Əgər əhalinin yaşayış rifahı aşağıdırsa, təbii ki, bankın rayon filialı bağlanmalıdır, çünki gəlir əldə edə bilməyəcək. Banklar bu haqda düşünməlidirlər. Bankların fəaliyyətini tənzimləyən müvafiq qurumlar onların inkişaf strategiyasına daha ciddi nəzarət etməlidirlər. Bu zaman aydın olacaq ki, bank nəyin əsasında öz gələcəyini görür. Banklar, eyni zamanda, ölkənin strateji inkişaf maraqlarına xidmət etməlidirlər. Əhalinin yarıdan çoxu regionlarda yaşayır. Banklar rayonlarda hətta Bakıdan da daha əlverişli şərait yaratmalıdırlar ki, paytaxtda yaşayan iş adamları məhz bölgələrə sərmayə qoymaqda maraqlı olsunlar".




Hesab edilir ki, banklar dövlət tərəfindən dəstək ala bilmək üçün artıq kredit siyasətində düzəlişlər etmək məcburiyyətindədirlər. Çünki bu, kreditlərin müəyyən hissəsinin regionlarda da birbaşa iqtisadiyyata, istehsala yönəlməsinə gətirib çıxaracaq. Elə dövlətin də istədiyi məhz budur. İndilikdə risqlərini sığortalamaq istəyən banklar nisbətən aşağı faizli biznes kreditlərini Bakıda təklif etməyə üstünlük verirlər.

**Bu isə, bir tərəfdən, bankların regionlarda real sektoru daha az dəstəkləməsinə, digər tərəfdən, rayon sakinlərinin bahalı kreditlərdən istifadə etməsinə səbəb olur. Rayonlarda bank filiallarının sayının az olması və bu səbəbdən Bakı ilə müqayisədə zəif rəqabət də kredit faizlərinə təsir göstərir. Bu baxımdan, kreditə çıxış imkanlarının asanlığı da məhz kredit faizlərinə təsir göstərən əsas faktorlardan hesab edilir. Bütün bunlar indi dövlət tərəfindən də qəbuledilməz hal kimi qiymətləndirilir və belə görünür ki, banklar artıq regionlarda istədikləri kredit siyasətini yeridə bilməyəcəklər.**

***Ramil QULİYEV***

# Professor İdris Abbasov Ali Attestasiya Komissiyasından nələr açdı...

**Ali Attestasiya Komissiyasının (AAK) Rəyasət Heyətinin çıxardığı 13 dekabr 2019-cu il tarixli, 13-R nömrəli qərarı yalnız doktorant və dissertantlar deyil, ölkənin nüfuzlu elm adamları da ədalətsiz qərar adlandırırlar.**

Təəssüf ki, AAK rəhbərliyi çıxardığı qərarın əsirinə çevrilib və onu "ədalətli" adlandırmaqdan savayı, çarə tapmır.

Qeyd edək ki, AAK-ın məlum qərarına görə, fəlsəfə doktoru elmi adı almaq üçün müzakirədən keçmiş dissertasiyalar yenidən ilkin müzakirəyə qaytarılmalı, seminardan keçənlər isə yenidən seminarda iştirak etməlidirlər. AAK-ın bu qərarına etirazını bildirən iddiaçılar qərarın ləğvinə nail olmaq üçün ölkə başçısı İlham Əliyevə də müraciət ediblər. Lakin hələ də onlar buna müvəffəq olmayıblar. Məsələ burasındadır ki, AAK iddiaçıların ədalətsiz hesab etdikləri qərarın qəbul edilməsi səbəbilə bağlı heç bir açıqlama vermir. Bu arada sosial şəbəkələrdə AAK-da baş verən qanunsuzluqlar, korrupsiya və saxtakarlıq halları ilə bağlı informasiyalar yayılır. Hətta AAK rəhbərinin özünün professorluq diplomunun saxta olmasına dair iddialar da gündəmdədir.

AAK-da baş verənləri yaxından izləyən AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun nəzəri dilçilik şöbəsinin müdiri, tanınmış dilçi-alim, filologiya elmləri doktoru, professor İdris Abbasovla əlaqə saxlayıb bu qurumda baş verənləri sizinlə bölüşmək istədik.

**- İdris müəllim, AAK-ın məlum 13 dekabr qərarı elm sahəsinin astanasında dayanan, elmlə məşğul olmaq istəyində olan istedadlı gənclərə çox mənfi təsir göstərib. Hətta bu qərardan xəstələnənlər də, ağır stress keçirənlər də olub. Hadisələri müşahidə edirsiniz, bu yanlış qərarın verilməsinə səbəb nə idi?**

- AAK-ın 13 dekabr 2019-cu il tarixli qərarının hansı zərurətdən doğduğunu heç kəs izah edə bilmir. Əksəriyyət birmənalı şəkildə təsdiq edir ki, məlum qərar Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddəsinə zidd olaraq çıxarılıb. AAK-ın şöbə müdiri qanunsuz qərara haqq qazandıraraq bildirib ki, qərar dissertantların işini yüngülləşdirməyə xidmət edir. Reallığın əleyhinə yönəlmiş bu açıqlama elmi tədqiqatçıları daha çox narahat etməyə başlayıb. Düşünülməmiş qərar nəticəsində neçə-neçə insanın taleyinə biganə yanaşılıb. Sosial şəbəkələrdə alimlər, professorlar və elmi rəhbərlərdən imdad diləyən tədqiqatçıların səsinə səs verən biri kimi o insanların stress keçirdiklərinin, əzab-əziyyətlərə, süründürməçiliyə düçar olduqlarının, yaşadıqları bu gərginliyin özlərinə və hətta körpə uşaqlarının sağlamlığına necə mənfi təsir göstərdiyinin şahidi oldum. Onların əksəriyyəti saf, siyasi proseslərdən uzaq, elmlə məşğul olmağın müqəddəsliyini dərk və qəbul edən insanlardır.

**- Dissertantlar və doktorantlar AAK-ın Rəyasət Heyətinin çıxardığı məlum qərarın ləğv edilməsi üçün mübarizə aparırlar, hətta kömək üçün cənab Prezidentə də üz tutublar, amma hələ də onlara qarşı AAK rəhbərliyi süründürməçiliyi davam etdirir. Bu azmış kimi, dissertant və doktorantlara qarşı müxtəlif yollarla təzyiqlər də edilir. AAK "ədalətli" qərar çıxardığını deyir... Sizcə, AAK ədalətsizliyə niyə son qoymur?**

- Bəli, hətta "WhatsApp" qrupunda onlarla tədqiqatçını birləşdirən bir amal var: Konstitusiyaya zidd qərarın ləğvi və onların hüquqlarının təmin olunması. AAK rəhbərliyinin qeyri-adekvat açıqlaması və yanlış qərarın üzərində israrla dayanması bir qrup gənc alim və tədqiqatçını ölkə başçısına müraciət etməyə vadar edib. Tədqiqatçılar yalnız cənab Prezidentin müdaxiləsindən sonra haqlarının bərpasına inandıqlarını bildiriblər.

*”Onlar belə proseslərdən şəxsi maraqları üçün istifadə etmək şansı qazanırlar, tədqiqatçını özlərindən asılı vəziyyətə salır, süründürür, təzyiq edir, min oyundan çıxırlar”*



*”Ənənəvi olaraq, AAK-la müdafiə şuraları, işçevirən alimi-biəməllər eyni şəbəkədə fəaliyyət göstərirlər”*

**- Uzun illərdir rüşvət və korrupsiya yuvasına çevrildiyi iddia edilən AAK-ın yeni rəhbərliyinin də köhnədən qalma ənənələri davam etdirdiyi bildirilir. Hətta sosial şəbəkələrdə AAK rəhbərinin özünün professorluq diplomunun da saxta olduğu barədə iddialar yer alır. O da deyilir ki, son illər AAK-dan alimlik diplomu alanlar arasında buna rüşvət müqabilində nail olanlar da çoxdur. Necə bilirsiniz, deyilənlər həqiqət ola bilərmi?**

- Yayılan məlumatlara görə, sözügedən qurum korrupsiya və rüşvətdən sıyrılıb çıxan bir qurumdur. Mən 9 aya yaxın bir müddətdə AAK-ın Filologiya üzrə Ekspert Şurasının üzvü oldum. Bu müddət ərzində rüşvət alıb-vermə mexanizminin şahidi olmadım. Amma iş prinsipinin elmə və dövlətə heç bir faydası olmadığını yəqinləşdirdikdən sonra 15 yanvar 2020-ci ildə oraya getməkdən imtina etdim. AAK rəhbərinin professorluq diplomuna gəlincə, onun həqiqi, ya saxta olması barəsində heç bir arqumentim yoxdur və açığı, belə şeylərə inanmıram.

**- Doktorantlar və dissertantlar mənimlə söhbətlərində deyirlər ki, AAK rəhbərliyi problemi həll etmək, 13 dekabr qərarını ləğv etmək əvəzinə, iddiaçıları parçalamaq yolunu tutub, onları ayrı-ayrılıqda tərki-silah etmək istəyir. Bu haqda nə deyərdiniz?**

- Bəli, AAK rəhbərliyi problemi ya həll etmək istəmir, ya da bacarmır. İddiaçılara müəyyən psixoloji təsirlərin edilməsi göz qabağındadır. Məlumata görə, AAK sədri fevral ayının 7-də bir nəfər dissertantı, fevralın 8-də isə 4 nəfər dissertantı qəbul edərək onlara müəyyən vədlər verib, "yaşıl işıq" yandıracağını deyib. Görüşdə iştirak edənlərin qrupa atdıqları səsyazıları bir çox mülahizəyə yol açır. Tədqiqatçıları qanunu tələb etmək mövqeyindən çəkindirmək məqsədilə gah müəyyən təhdid elementlərinin, gah da əməllibaşlı sövdələşmənin izləri görünür.

**- Deyilənə görə, artıq bu parçalanma prosesinə iddiaçıların işlədikləri müəssisələrin rəhbərləri də cəlb ediliblər... Onlara qarşı müxtəlif şirnikləndirici təkliflər irəli sürülür ki, şikayət etmə, sənin müdafiənə şərait yardılacaq, sənin işin ilkin müzakirəyə formal olaraq göndəriləcək, seminardan formal olaraq keçəcəksən və s. Doktorant və dissertantları parçalayan şəxslər öz məsuliyyətlərini niyə dərk etmirlər?**

- Ayrı-ayrı dissertantlardan, doktorantlardan bu xəbəri eşidirəm. Hətta naəlac qalan bir dissertant göz yaşları içərisində öz sənədlərini çalışdığım şöbəyə təkrar müzakirəyə təqdim edib. Təbii ki, bu qərarın mən özüm lehinə deyiləm. Ona görə də təkrar müzakirəyə sədrlik etməkdən imtina etmişəm. Elmə, inkişafa heç bir aidiyyəti olmayan belə yanlış qərarın icraçısı olmaq üçün o qədər üzüyola, cahil olmalısan, o qədər mütiliyə alışmalısan ki, öz torpağını, vətənini də düşmən işğal edəndə mütiliklə, boynubükük şəkildə cavab verəsən. Hər şey elmdən, ziyalılıqdan, haqq sözünü deməyi bacarmaqdan, özünə qarşı tələbkar olmaqdan başlayır. Təəssüf ki, bizim bəzi alim-məmurlarımız hələ də ayılmayıblar. Şirnikləndirici təkliflər, formal müzakirə, formal seminar vədləri və s. Məlumata görə, 10 fevral 2020-ci il tarixdə ADPU-nun prorektoru Asəf Zamanov belə bir təşəbbüsdə bulunub. Hətta o, AAK-ın 13 dekabr 2019-cu il tarixli qərarının ziddinə olaraq, dissertantlara vəd verib ki, ilkin müzakirədən keçənlər müzakirəni təkrar keçməyəcəklər. Bu vəd bir çox dissertantın sevincinə səbəb olub.

*(Ardı 14-cü səh.)*

(Əvvəli 13-cü səh.)

Hətta A.Zamanov bir neçə dissertantı qanunsuz qərarla razılaşdıra bilib və təkrar seminara qatılmaq razılığını alıb. Bu xəbəri eşidəndə düşündüm ki, yəqin düşmənə cavab vermək üçün səfərbər olunmuşuq. Sən demə, ört-basdır əməliyyatına başlanıb. AAK sistemində yaranmış sistemsizliyi sübut etmək üçün təkcə bu fakt da kifayətdir.

**- AAK tələb qoyub ki, iddiaçıların avtoreferatları mütləq qurumun istədiyi şəxslər tərəfindən xarici dilə tərcümə edilməlidir. İddiaçıların mənə verdiyi məlumata görə, avtoreferatın səhifəsi 17 dollara tərcümə edilir. Bu məsələ də onları ciddi narahat edir.**

- Universitetlərin birində belə bir afişa görüblər ki, avtoreferatı mütləq filan şöbədə tərcümə etdirməlisən, yoxsa keçərli olmayacaq. Bəli, müəyyən qiymətlər də qoyublar. Təbii ki, bunu biznes marağına çevirmək cəhdləri doğru deyil. Çünki ingilis dilində imtahan verən, öz işinə bələd olan iddiaçı yazdığı dissertasiyanı istənilən ingilis dili tərcüməçisindən də yaxşı yerinə yetirə bilər.

**- AAK-ın doktorant və dissertantların başına gətirdiyi oyunlara elm ictimaiyyəti çox zəif reaksiya verdi, sizi və Həbib müəllimi, İlqar Orucovu çıxmaq şərtilə, onların səsinə səs verən olmadı. Alimlər niyə susurlar?**

- Qanunsuzluğa tuş gəlmiş gənc tədqiqatçılardan biri alimlərdən kömək istəyirdi: "Çox hörmətli professor, dosent, alimlər, doktorant hazırlığı ilə məşğul olan müəssisələrin doktorantura şöbələri, elmi katib, elmi rəhbərlər, müdafiə şurası sədri və üzvləri, elmi seminar rəhbəri və üzvləri və s. VƏTƏNDAŞ MÖVQEYİNİZİ BİLDİRMƏYƏ DƏ TƏƏSSÜBKEŞLİYİNİZ YETMƏDİ?!". Sosial şəbəkələri ürəkdağlayıcı fəryadlar bürüyüb. Daşdan səs çıxır, onlardan yox. Səsini çıxarmalı olan alimlərin susmalarının bir çox səbəbi var. İlk növbədə vicdanın olmalıdır. O insanların yerində öz bacını, qardaşını, həyat yoldaşını, uşağını qoy. Razı olarsanmı onlara elə zülm edilməsinə, müxtəlif qurumların qapılarında girinc olmalarına? Əlbəttə, yox. Onda niyə səsini çıxarmırsan? Onların dar düşüncələrinə görə, AAK-ın tədqiqatçılar üçün çətinlik yaradan istənilən qərarının onlar üçün faydası var. Vicdansız elmi rəhbər, vicdansız rəyçi, vicdansız iclas sədri və bu qəbildən olan digərləri üçün belə qərarlar ürəkaçandır. Çünki onlar belə proseslərdən şəxsi maraqları üçün istifadə etmək şansı qazanırlar, tədqiqatçını özlərindən asılı vəziyyətə salır, süründürür, təzyiq edir, min oyundan çıxırlar. Ənənəvi olaraq, AAK-la müdafiə şuraları, işçevirən alimi-biəmələr eyni şəbəkədə fəaliyyət göstərirlər. Məsələyə birbaşa aidiyyəti olmayan alimlərin biganəliyi artıq vicdan məsələsidir. Bu insanların səsinə səs verməyin altında böyük proseslərin başlanğıcı dayanır. Təəssüf ki, bizim alimlərin bəziləri belə ağrılı məqamda nəinki mənəvi işgəncəyə məruz qalanların səsinə səs vermədilər, hətta fürsətdən istifadə edib qanunu pozan vəzifə sahiblərinə yaltaqlıq etmək şansı qazandılar. Bu etiraz elmi mühitin acınacaqlı mənzərəsini bir daha ortaya qoydu. Ona görə də cəsarətlə haqqını müdafiə edən gənc bir tədqiqatçı bu dövlət üçün 50 tüfeyli, məddah alim-professordan qat-qat faydalıdır. Sədr Famil Mustafayevin alicənablıq edib qərarı ləğv etməsi, AAK adından mənəvi işgəncəyə məruz qalmış tədqiqatçılardan üzr istəməsi ən düzgün addım olardı.

**- İddialara görə, AAK-ın dissertant və doktorantları bu vəziyyətə salan qərarını Vəli Hüseynov çıxarıb. Amma Vəli müəllim bir dəfə də olsun bu məsələyə aydınlıq gətirməyib. Mən özüm dəfələrlə AAK-a müraciət etmişəm, amma onlarla danışmaq mümkün olmayıb. AAK niyə qərarın səbəbini ictimaiyyətə açıqlamır?**

- Yox. Qərar çıxan vaxt Vəli Hüseynovun, məncə, heç bir səlahiyyəti olmayıb. Bəli, AAK-da Vəli Hüseynov kabusu dolaşmaqdadır və bütün baş verənləri onun əsrarəngiz çubuğu ilə bağlayanlar da var ki, bu da xurafatdır. Danılmaz faktdır ki, çıxarılan qərar Konstitusiyaya ziddir. Yəqin etiraf etməyə özlərində cəsarət tapmırlar, halbuki, etiraf ən böyük mədəniyyətdir. 100 gənci bir kresloya qurban etmək olmaz.

**- İdris müəllim, AAK-ın Ekspert Şurasının üzvlüyündən imtina etməyinizin səbəbi nədir?**

- Mən Ekspert Şurasının lüzumsuz olduğunun şahidi oldum. F.Mustafayev yenilik etmək istəyirsə, ilk olaraq elmə aidiyyəti olmayan Ekspert Şurasını ləğv etməlidir. Amma o nə etdi? Nazirlər Kabineti qarşısında məsələ qaldırdı ki, ekspertlərə pul vəsaiti ayrılsın. Baş nazir də hər saatı 15 manat olmaqla saathesabı pul ödənilməsi ilə bağlı qərar imzaladı. Düzdür, AAK sədrinin bu təşəbbüsü bir ekspert kimi mənim xeyrimə idi, amma ədalətin xeyrinə deyildi. Ekspert Şurası üzvlüyündən ayrılmağım həyatımda öz ziyanıma atdığım addımlardan birincisi deyil. 9 ay müddətində mən ekspert oldum, özü də işlərin qızğın çağında. Vallahi, bəzmi-istirahət idi. O işə 1 manat da düşmür. Çünki heç bir faydası olmayan bir işdir. Ən yaxşı halda, vətən övladlarını AAK-a çağırıb dəhlizlərdə sinsitmək və s. Guya içəridə vacib işlər gedir. Gözdən belə pərdə asmağa pul xərcləyərlərmi? Özü də nə qədər... İlahi, pərvərdigara! F.Mustafayev deyib ki, fevral ayından ödənişlər başlayacaq. Üzümü F.Mustafayevə tutub deyirəm: lütfən, Famil müəllim, yanlış qərardan sonra ikinci böyük yanlışlığa yol verməyin! Dövlətin marağını qorumaq hər birimizin borcudur, sizin isə həm də vəzifə borcunuzdur! Təsəvvür edin, 15 ekspert şurası var, hər şurada 20-dən artıq üzv var. Lap 20 nəfərdən hesablasaq və ayda hər bir ekspertə minimum 250-300 manat versək, 1 ilə təxminən 9 milyon manat pul edir! Bu nə deməkdir?! Məgər əlimizə düşmən büdcəsi keçib? Həm faydasız iş, həm də dövlət vəsaitinin havayı xərclənməsi... Gizlincə haqdan, ədalətdən danışan alim həmkarların bu dövlətə aidiyyəti yoxdurmu?! İndi mənə sual edirsiniz ki, bu alimlər niyə doktorantların səsinə səs vermədilər? Onlar hər şeydən müqəddəs olan dövlət maraqlarının öz xeyirlərinə rəncidə olmasına səs çıxardırlar ki, hələ bu biri taleyüklü məsələlərə də səs çıxaralar? Ümidimiz səsini çıxaran insanlaradır. Gəlin, elmə gələn gəncləri düzgün istiqamətləndirək! Təəssüf ki, bu ölkəyə biz yararlı ola bilmədik, barı onlar olsunlar! Vicdansızlığımızı onlara təlqin etməyək! Düzdür, onların çoxunu özümüz kimi bivec etmişik, amma zərərin yarısından qayıtmaq da xeyirdir. Gəlin, onların üzərinə səlib yürüşü edib pərən-pərən salmayaq! Nəfsimiz, kreslomuz xatirinə sabahımızı məhv etməyək! Bəsdir! Yetər artıq!

*İradə SARIYEVA*

**P.S. Müraciət edərlərsə, AAK təmsilçilərinin də mövqeyini dərc etməyə hazırıq.**

# Bakı Ağciyər Xəstəlikləri İnstitutunda bu qədər ölüm?...

**Bir neçə gündür Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda qeydə alınan ölüm faktları cəmiyyətdə ciddi narahatlığa səbəb olub. Xəstəxana barədə səsləndirilən bir sıra faktlar öz əsasını tapmasa da, bir neçə gün öncə xəstəxananın baş həkimi İman Rzayevin Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda həkim-reanimatoloq olmaması barədə açıqlaması isə ciddi ajiotaj yaradıb.**




***Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu - Həqiqət Qədirova:*** *"Son bir neçə gündə xəstəxanada ölüm faktları qeydə alınıb"*

***Adil Qeybulla:*** *"...onların koronavirusdan dünyasını dəyişib-dəyişmədiyi aydınlaşdırılmalıdır"*

Qeyd etdiyimiz kimi, son bir ayda adıçəkilən xəstəxanada ard-arda ölüm halları baş verir. Ötən gün Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda daha 2 xəstə ölüb.

Bildirək ki, son 4 ayda ETAXİ-də 11 nəfər ölüb. Burada qeydə alınan ölüm faktlarını TƏBİB də təsdiqləyir.

ETAXİ-nin direktoru Həqiqət Qədirova bildirdi ki, son bir neçə gündə xəstəxanada ölüm faktları qeydə alınıb: "Ölənlərdən biri - 1959-cu il təvəllüdlü şəxs xəstəxanaya yanvarın 31-də yerləşdirilib. Həmin vaxta qədər bir sıra xəstəxanalarda müayinə və müalicə edilən xəstəyə ağır diaqnozlar qoyulub. Göstərilən səylərə baxmayaraq, ağır vəziyyətdə reanimasiya şöbəsinə köçürülən xəstə dünyasını dəyişib. 1944-cü il təvəllüdlü digər xəstə isə instituta fevralın 5-də ağır vəziyyətdə, soltərəfli piopnevmotoraks, sepsiki vəziyyət, xroniki böyrək çatışmazlığı diaqnozu ilə daxil olub. O, döş qəfəsi cərrahiyyəsi şöbəsinə yerləşdirilib".

Son günlər ETAXİ-də qeydə alınan ölüm halları nə səbəbdən baş verir? Məsələ ilə bağlı professor, həkim-ekspert Adil Qeybullanın fikirlərini öyrəndik. O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hər il mövsümi soyuqdəymə xəstəlikləri zamanı müəyyən kateqoriyalı insanlar dünyasını dəyişir: "Ağciyər Xəstəlikləri İnstitutuna, adətən, sətəlcəmin ağır formasında olan xəstələr yerləşdirilir. Belə bir fikir var ki, xəstəxanada qeydə alınan ölüm faktlarına səbəb koronavirusdur. Nəzərə almaq lazımdır ki, hər il mövsümi soyuqdəymə xəstəlikləri zamanı müəyyən kateqoriyalı insanlar vəfat edirlər. Bu ilin xəstəliyi isə koronavirusdur. Koronavirus təhlükəli xəstəlikdir. Artıq bu məsələyə Ümumdünya Səhiyyə Təşkilatı qarışıb. Bu, onun öhdəsində olan məsələdir, bütün dünya onun tövsiyələri əsasında hərəkət etməlidir. Ölkədə karantin tədbirlər var. Əhali arasında maariflləndirmə işlərinə geniş yer verilməlidir. Bütün bunlar ondan ötrüdür ki, insanlar xəstələnəndə düz hərəkət etsinlər, xəstəliyi ayaq üstə keçirməsinlər. Xəstəliyi ağırlaşdırmaq olmaz. Əslində, görünən reallıq odur ki, insanlar xəstəliyə önəm vermirlər. Müalicə olunan xəstəlik getdikcə ağırlaşır, immun sistemi zəifləyir, nəticədə xəstə həyatını itirir".

A.Qeybullanın sözlərinə görə, bu günlərdə ETAXİ-də ölənlərdən nümunələr götürülməli və analiz edilməlidir: "Ölənlərin burun boşluğundan, nəfəs yollarından yaxmalar götürülməlidir. Onların koronavirusdan dünyasını dəyişib-dəyişmədiyi aydınlaşdırılmalıdır. Təəssüf ki, biz bu araşdırmaların şahidi olmuruq".

*Günel CƏLİLOVA*

# Azərbaycanda süni qida istehsalçılarına sərt qadağa qoyulur

**Nazirlər Kabineti körpələr və erkən yaşlı uşaqlar üçün qida və ekoloji təmiz qida məhsulları istehsalı və satışının tənzimlənməsi haqqında yeni qərar verib. Qərara əsasən, körpələr və erkən yaşlı uşaqlar üçün qida və ekoloji təmiz qida məhsulları istehsalı və satışı tənzimlənəcək.**

*"...süni uşaq qidalarından çox istifadə körpələrdə vitamin çatışmazlığına səbəb olur"*

Bu qərar Azərbaycanda süni qidanın istehsalı, idxalı və satışı ilə məşğul olan şirkətlərin fəaliyyətini beynəlxalq standartlara uyğun olaraq tənzimləyən normativ-texniki və hüquqi aspektləri müəyyənləşdirir. Belə ki, sertifikatı olmayan şirkətlərin süni qida məhsullarını istehsal etməsi, hər hansı şirkət tərəfindən satışı və idxalı qadağan olunacaq.

Ekspertlər hesab edirlər ki, sertifikatı olmayan süni qida məhsullarının istehsal edilməsi və satışının təşkil olunmasının qadağan olunması müsbət haldır.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, süni qidalar arasında ən çox uşaq qidalarından istifadə olunur: "Süni uşaq qidalarından çox istifadə körpələrdə vitamin çatışmazlığına səbəb olur. Azərbaycanda uşaq qidalarının satışında və təbliğatında qanun pozuntuları mövcuddur. Uşaq qidaları məhsullarının distribütorları pediatrlarla heç bir stimullaşdırıcı görüş və tədbirlər keçirməməlidirlər. Onların pediatrlarla əlaqələri məhdudlaşdırılmalıdır. Azərbaycanda isə əksinədir. Bu distribütorlar həkimlərlə sıx işbirliyi qurublar. Bizdə hətta rəsmi məlumatlar da var ki, belə şirkətlər pediatrları stimullaşdırmaq üçün onları müxtəlif xarici ölkələrdə keçirilən tədbirlərə də göndərirlər. Ümumiyyətlə, doğum evlərində və uşaq xəstəxanalarında uşaq qidaları ilə bağlı heç bir təbliğat vasitələrindən istifadə edilməməlidir. Çünki tədqiqatlar göstərir ki, süni uşaq qidalarından xəbər tutan analar tənbəlləşir və onlardan istifadəyə meyl edirlər. Hətta bu zaman ananın südü çəkilir".

***Eyyub Hüseynov:** "Süni uşaq qidalarının tərkibi çox mürəkkəb olduğundan, onların yoxlanılması da çətindir"*



Həmsöhbətimiz onu da əlavə etdi ki, süni uşaq qidalarının tərkibi çox mürəkkəb olduğundan, onların yoxlanılması da çətindir: "Azərbaycanda belə dəqiq analizlər aparacaq laboratoriya olmadığından, bu məhsulların tərkibi haqqında dəqiq məlumatlar yoxdur".

*Günel CƏLİLOVA*

# Bakıda piyadaların vurulmasının əsas səbəbi açılır - Qəzalar daha çox paytaxtın işıqlandırılmayan hissələrində baş verir

**Bakının mərkəzi küçələri günün qaranlıq saatlarında işıqlandırılsa da, təəssüf ki, bunu bütün yollara şamil etmək olmur. Ətraf qəsəbələrdə isə vəziyyət daha da acınacaqlıdır. Müəyyən ərazilər var ki, avtomobillərin intensiv hərəkət etdiyi yollarda belə işıqlandırma yoxdur.**

***Anar Nəcəfli:** "Küçələrin işıqlandırılması, səkilərin müəyyənləşdirilməsi birbaşa yerli icra strukturlarının sərəncamındadır"*

***Elməddin Muradlı:** "...bu, çox neqativ bir mənzərə yaradır"*

Təbii ki, bu da həmin yollarda qəzaları qaçılmaz edir.

Qaranlıq olanda yolda olan çala-çuxurlar görünmür və bu da qəzalara səbəb olur. Yeni salınan yollarda da eyni problem yaşanır: çalalar olmasa da, qaranlıqda yolu qadağan edilən yerlərdən keçən piyadalardan heç kim sığortalanmayıb.

Xatırladaq ki, yolların işıqlandırılması ilə bağlı ölkə başçısı da ciddi tapşırıqlar verib. Qeyd edək ki, ötən il ölkə Prezidenti "Yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Məqsəd isə ölümlə və sağlamlığa zərər vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin sayının, habelə ölkə iqtisadiyyatına və ekologiyasına dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlər görməkdir. Yolların işıqlandırılması üçün aidiyyəti qurum və ya qurumların üzərinə düşən vəzifə də təbii ki, məlumdur. Ancaq bu sahədə işlərin görülməsi üçün tapşırıqların verilməsinə baxmayaraq, işıqlandırılmayan küçələrdə piyada ölümü faktı qeydə alınmaqda davam edir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat katibi Anar Nəcəfli bildirdi ki, yolların işıqlandırılması birbaşa qurumun səlahiyyətində deyil: "Küçələrin işıqlandırılması, səkilərin müəyyənləşdirilməsi birbaşa yerli icra strukturlarının sərəncamındadır. Yerli icra qurumu gözləməməlidir ki, küçədə 1 ilə, 10 ilə təmir, yenidənqurma işi aparılacaq və bu zaman işıqlandırılma işləri



görüləcək. AAYDA olaraq biz küçələrin bərpası, yenidən qurulması və təmiri ilə məşğuluq. Küçələr bizim tərəfimizdən, sadəcə, təmir edilir. Düzdür, biz də küçələrin işıqlandırılmasının tərəfdarıyıq, buna çalışırıq da. Ancaq yolların təmir edildikdən sonra işıqlandırma sisteminin olmamasına AAYDA cavabdeh deyil".

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı bildirdi ki, yolların işıqlandırılması üçün Prezidentin göstərişi var: "Hacıqabul, Kürdəmir ərazisində, piyadaların daha çox vurulduğu yerlərdə işıqlandırılma bərpa edilib. Əvvəllər həmin ərazilərdə işıq dirəkləri olub. Bir müddət işlədikdən sonra həmin dirəklər 5-6 il idi ki, fəaliyyətsiz idi. Respublika əhəmiyyətli yollarda və Bakının bir sıra ərazilərində bu proses sürətlə həyata keçirilməlidir".

**Həmsöhbətimiz onu da vurğuladı ki, Bakı mərkəz olmasına baxmayaraq, burada da müəyyən problemlər var: "Bəzi küçələrdə işıqlandırma saat 00.00-a kimi davam etdirilir. Sonra söndürülür. Bu, çox neqativ bir mənzərə yaradır. Kimsə buna maliyyə məsələlərini səbəb göstərə bilər. Amma insan həyatı çox önəmlidir və dünyanın heç bir ölkəsində gecə saatlarında küçələrdə işıqlar söndürülmür".**

*Günel CƏLİLOVA*

№ 25 (4156) ■ Qiymәti: **40 qәpik**

# BAKI XƏBƏR

12 FEVRAL 2020-ci il

www.baki-xeber.com



# Şəhərlərdə ən təhlükəsiz yerlər müəyyən edildi

**ABŞ-da Pensilvaniya Dövlət Universitetinin alimləri böyük şəhərlərdə havada çirkləndirici bərk hissəciklərin miqdarının aşağı səviyyədə olduğu ən təhlükəsiz yerləri müəyyən ediblər.**

"Oxu.az" bildirir ki, bunlara binaların damları və külək tutmayan tərəfləri daxildir. Tədqiqatçılar şəhər ərazisində hava axınını simulyasiya edən aerodinamik qurğu yaradıblar. Aşağı hündürlüklərdə küləyə mane olan və turbulentlik (ağac və binalar) yaradan maneələrin yaradılması üçün alimlər kartondan və plastik konstruktorun detallarından istifadə ediblər. Bərk hissəciklər havada çox vaxt su damcıları ilə örtülü olduğu üçün, çirklənmə mənbəyi kimi ultrasəs nəmləndiricisindən istifadə edilib. Təcrübə zamanı əldə edilən məlumatlar kompüter modelinin işlənib hazırlanması üçün istifadə olunub. Hissəciklərin ən az miqdarı binaların damında və külək tutmayan tərəflərində (hissəciklərin axını küçələrə perpendikulyardır) aşkar edilmişdi. Bu da qəza nəticəsində çirkləndirici maddələrin havaya atılması zamanı piyadalar üçün yeni təhlükəsizlik qaydalarını müəyyən etməyə kömək edir. Bildirilir ki, yeni havasorucu qurğuları binaların dam hissələrində küçə yollarından uzaqda quraşdırılmalıdır. Çirklənmiş şəhər havası xroniki xəstəliklərin və xərçəngin inkişafının, həmçinin vaxtından əvvəl ölümün əsas səbəblərindən biridir.

## Elan

Mehdiyev Müseyib Əyyub oğlunun adına, Abşeron rayonu, Novxanı kəndində yerləşən torpaq sahəsinin çıxarışı (N308-013099518) itdiyi üçün etibarsız sayılır.

Rəhimzadə Vaqif Kamal oğlunun adına, Bakı şəhəri, Maştağa qəsəbəsi, M.Şəfai küçəsi, ev 31A ünvanına verilmiş çıxarış, texniki pasport və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

Lazımova Sineyvər Bəşir qızının adına, Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli küçəsi, ev 5 a, mənzil 107 ünvanına verilmiş çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

1988-ci ildə Cəmil Əhmədov adına Cəbrayıl şəhər tam orta məktəbi tərəfindən Ağakişiyeva Pərvanə Əhməd qızına verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

Ələkbərov Müslüm Əhəd oğluna (AZ I №626566, 08.07.2013-cü il tarixli ölüm haqqında şəhadətnamə) məxsus BZDSiK BT Tresti tərəfindən 08 dekabr 1968-ci il tarixində verilmiş, Ləhiş bağlar massivində yerləşən 1876 saylı bağın orderi itdiyi üçün etibarsız sayılır.

## Müdrik insanların dərk etdiyi 10 reallıq

**Çətinliklərlə necə ram edək? Bəzi insanların anadan olandan şanslı olduğu düşünülür. Hətta, "ulduzları yüksəkdir" kimi fikirlərlə əsaslandıranlar da az deyil. Həmin insanlar həyatlarından razı olur və ətrafındakılar tərəfindən sevilir, qiymətləndirililər.**

Bəzilərimiz isə həyatdan narazıyıq. Daim mübarizə aparır və xəyallarımızın gerçəkləşməyəcəyinə inanırıq. Həmişə düşünürük ki, daha yaxşı vəziyyətdə olmalı, daha çox pul qazanmalı və daha yaxşı görünməliyik. İstəklərimiz reallaşmayanda isə ətrafımızdakıları günahlandırırıq. "Kaspi.az" bildirir ki, xoşbəxtlik mütəxəssisi Şannon Kaiser kitabı üçün apardığı araşdırma zamanı, çoxumuzun, həyatımızın bir nöqtəsində görmədiyi vacib bir həqiqəti kəşf edib. Kaiser düşünür ki, yaşadığımız təcrübələr bəzi nüansları dərk etməyimiz üçün əhəmiyyətlidir. Əgər bir təcrübədən dərs almasaq, oxşar vəziyyətlərlə təkrar-təkrar rastlaşarıq. İnsanlar dəyişə bilər, lakin çətinlikdən nəticə çıxarmadıqda, üzünün gülmədiyi münasibətlər, ruhunu korlayan hadisələr tez-tez baş verəcək. "Niyə mən", "Niyə eyni şeylər mənim başıma gəlir", "Mən buna layiq deyiləm" kimi fikirlərlə daim üsyan edirik. Ta ki, özümüzdə olan problemi dərk edib, bilənə qədər... Çətinliklərdən qaça bilməzsiniz, amma sizi imtahan etmək və öyrətmək üçün həyatınıza girdiyini dərk edib, fərqli yanaşa bilərsiniz. Bu yanaşma çiyninizdən bir yükü azaldacaq və çətinliyi fürsətə çevirməyinizə imkan verəcək. Müdrik insanların fərqinə vardığı 10 həqiqəti sizə təqdim edirik: 1. Etdiklərimizdə səhv yoxdur, yalnız inkişaf var. Mövcud vəziyyətdə əlimizdən nə gəlirsə, onu edirik. Müdrik insanlar etdiklərini səhv olaraq dəyərləndirmək əvəzinə, bir də belə vəziyyətə düşdükləri halda, həll yolu üçün fərqli nə edə biləcəklərinə fokuslanırlar. 2. Dərsinizi alana qədər eyni hadisələri təkrar yaşayarsınız. Bu, qaçılmazdır. 3. Başqalarının sizə olan davranışı özünüzə olan inancınızı əks etdirir. Siz özünüzə nə qədər çox inanırsınızsa, başqaları da sizin qədər inanır. 4. Özünüzü nə qədər çox təsdiqləsəniz, başqalarının təsdiqinə ehtiyacınız olmaz. 5. Həyatınızda baş verənlər problemlər deyil, ehtimallardır. 6. Baş verənlər heç vaxt sizə qarşı deyil, həmişə sizin üçündür. Hər şərdə bir xeyir var! 7. Çata biləcəyiniz son nöqtə yoxdur. Məqsəd və istəklər bitmir. 8. Bu gün yaşadıqlarınız sabah nə yaşayacağınıza hazırlaşmağınız üçündür. 9. Həyatda ehtiyacınız olanı yaşayırsınız. Düşündüyünüz kimi olmaya bilər, amma lazım olduğuna əmin olun. 10. Həyatını necə formalaşdırmaq öz əlindədir.







**Qoç** - Bu gün başlayacaq münasibətlər dinamik inkişaf etməyəcək. Başqalarının səhvləri və sapıntılarına görə məsuliyyəti boynunuza almayın. Yaxın ətrafınızdakı insanların problemlərinin öhdəsindən gələ bilməyəcəklərini düşünməyin.



**Buğa** - Gün çoxsaylı və fərqli problemlər vəd edir. Onları ardıcıl şəkildə, tələsmədən, vurnuxmaya qapılmadan həll edin. Yalnız öz qüvvənizə bel bağlayın. Sizə yardım etmək istəyən yoxdur.



**Əkizlər** - Rəğbət bəslədiyiniz, önəm verdiyiniz insanlarla təmaslarda səmimi olun. Belədə qarşılıqlı inam və səmimiyyəti qoruya biləcəksiniz. Nəyisə gizlətmək cəhdləri uğursuzluğa düçardır.



**Xərçəng** - Günün ilk yarısı əlverişlidir. İstənilən müstəvidə yeni işə və ya layihəyə başlamaq olar. Təfərrüatlarına tam bələd olmadığınız işi görməkdən çəkinməyin. Detalları tez qavrayacaq, uğur əldə edəcəksiniz.



**Şir** - Münasibətlərdə sərinlik yaranarsa, onu aradan qaldırmaq asan olmayacaq. Maliyyə və əmlak məsələlərinin müzakirəsi üçün əlverişli zaman deyil. Alış-verişdə bədxərclik etməyin.



**Qız** - Gün ərzində baş verənlərin həddən artıq ciddi olaylar olduğunu düşünməyin. Ağır və çətin dəf ediləsi problemlər yaranmayacaq. Küsənləri, mübahisə edənləri barışdırmağa can atmayın. Səyləriniz nəticə verməyəcək.



**Tərəzi** - Dil tapa biləcəyiniz insanı tez müəyyənləşdirəcəksiniz. Axşam saatlarına yaxın maliyyə itkisi, uğursuz təsadüf ola bilər. Mühüm maliyyə məsələsini həll edərkən səhvə yol verə bilərsiniz.



**Əqrəb** - Yeni tanışlıqlar olacaq. Sizi əsla tanımayan insanda xoş təəssürat oyadacaqsınız. Romantik münasibət başlarsa, bir müddət sonra yaşamınızda önəmli rol oynayacaq. Liderlik məziyyətlərinizi nümayiş etdirin. Bədxahları üstələyin.



**Oxatan** - Yeni dostlar tapa bilərsiniz. Romantik münasibətin başlanma ehtimalı çox azdır. Kimdənsə xoşunuz gələrsə, hissləriniz qarşılıqlı olmayacaq. Sayıqlıq və təfərrüatlara diqqət tələb edən işə başlamaq üçün münasib zamandır.



**Oğlaq** - Enerjiniz çoxdur. Onu gərəkli məcraya yönəltsəniz, gün sözün əsl mənasında, uğurlu olacaq. Xırdalıqlara vaxt sərf etməyin. Mühüm işlə məşğul olun. Əmlakla bağlı məsələni həll etmək, təmirlə məşğul olmaq, tikintiyə başlamaq olar.



**Dolça** - Birmənalı olmayan gündür. Müsbət təmayüllərin təsiri artır. Yaranmış şanslardan istifadə edin. Gəlir istisna deyil. Sərfəli anlaşmaya nail olmaq və ya əməkdaşlığın çox məhsuldar olacağı insanlarla tanışlıq mümkündür.



**Balıqlar** - Çox uğurlu gündür. Yaranmış problemlərin öhdəsindən gəlmək, ən "çətin" insanla dil tapmaq imkanı var. Müşküllə qarşılaşmış insana zəruri yardım edin, məsləhət verin. Yaxın ətrafınızdakı insanlarla təmaslarda problemlər yaranmayacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Üzən "mələk" tapıldı

**Rusiya buzlaqlarının altında üzən inanılmaz və rəngarəng bir molyuskanın videosu sosial şəbəkələrdə yayılıb.**



"Milli.Az" xəbər verir ki, bütün dünyada internet istifadəçiləri Ağ dənizin buzları altında çəkilən kadrlara heyranlığını ifadə edib. Bu canlı məxluq "dəniz mələyi" adlanır, şimal dənizlərinin sularında yaşayır və uzunluğu cəmi iki ilə dörd santimetrə çatır. Maraqlıdır ki, bu "mələk"lər dəniz şeytanı molyusklarını yeyirlər. Və bu heyvanlar neyrofizioloqlar tərəfindən fəal şəkildə öyrənilir, çünki böyük, fərqlənə bilən neyronları var, bu da onların əlaqə mexanizmlərini öyrənməyə imkan verir. Bununla birlikdə, sosial şəbəkələrin istifadəçiləri ilk növbədə bu məxluqun görünüşünü yüksək qiymətləndirib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.